**Azərbaycan Milli Elmlər Akademiyası**
**Национальная Академия наук Азербайджана**

# AZƏRBAYCAN DÖVLƏT MUZEYİ

Azərbaycan elminin inkişaf tarixi
1920-1960

# Азербайджанский Государственный Музей

История развития науки Азербайджана
1920-1960

"Şərq-Qərb"
Bakı – 2012

Müəllif: **Zemfira Əli qızı Hacıyeva**
AMEA Rəyasət Heyətinin “Azərbaycanda Elmi İrsin Toplanması və Sistemləşdirilməsi” mərkəzinin rəhbəri, tarix üzrə fəlsəfə doktoru

İlkin materialları topladı: **Zemfira Əli qızı Hacıyeva** (mərkəzin rəhbəri)
**Aliyə Burxan qızı Qəhrəmanova** (baş mütəxəssis)

Автор: **Гаджиева Земфира Али кызы**
руководитель «Центром комплектования и систематизации научного наследия в Азербайджане» при президиуме НАНА, доктор философии по истории

Сбор первичных материалов: **Гаджиева Земфира Али кызы**
**Гахраманова Алия Бурхан кызы** (главный специалист)
**Азербайджанский Государственный Музей** (1920-1960), Баку, 2011, 179 с.

**Zemfira Hacıyeva. Azərbaycan Dövlət Muzeyi.**
Bakı, “Şərq-Qərb” Nəşriyyat Evi, 2012, 152 səh.

Monoqrafiyada XX əsrin 1920-1960-cı illərində Azərbaycanda muzeylərin inkişafı və formalaşması məsələləri araşdırılır. Azərbaycan Milli Tarixi Muzeyinin ekspozisiya və fondlarının inkişafı, genişləndirilməsi zəminində əməkdaşların üzləşdiyi problemlər müzakirə edilir. Əsər Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin Mərkəzi Aparatında fəaliyyət göstərən Azərbaycanda Elmi İrsin Toplanması və Sistemləşdirilməsi mərkəzinin (fond № 4) unikal sənədləri, həmçinin Azərbaycan Milli Tarixi Muzeyinin materialları əsasında tərtib olunmuşdur.

В монографии исследуются вопросы становления и развития музейного дела в Азербайджане за период 1920-1960-х годов XX века. В данной работе были рассмотрены проблемы, с которыми сталкивались научные сотрудники музея в деле развития и расширения экспозиции и фондов Национального Музея Истории Азербайджана. Представленная работа написана на основании материалов фонда №4 «Центра Комплектования и систематизации научного наследия в Азербайджане» при президиуме Национальной Академии Наук Азербайджана и Музея Истории Азербайджана.

**ISBN 978-9952-34-809-5**

© Azərbaycan Milli Elmlər Akademiyası, 2012
© “Şərq-Qərb” Nəşriyyat evi , 2012
www.eastwest.az

## Giriş

XX əsrin 90-cı illərində öz müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikası dövlətçilik ənənələrini qoruyub saxlamaq naminə qətiyyətli, uğurlu addımlar atır, xalqa məxsus özəllikləri tədqiq edərək, soy-kökünü öyrənməyə, keçmiş mənəvi dəyərləri özünə qaytarmağa çalışır.

Qədim tarixə malik olan Azərbaycan çox zəngin sivilizasiya ocaqlarından biridir. Onun tarixi ərazilərinin sakinləri əsrlər boyu yaratdıqları zəngin mədəni irsi sonrakı nəsillərə miras qoyub getmişlər.

Azərbaycan ərazisi özünün təbii-coğrafi şəraiti sayəsində bəşəriyyətin yaranma arealına daxildir. Burada ən qədim zamanlardan yaşayan insanlar sivilizasiyanın inkişafının bütün mərhələlərini keçmişlər. Azərbaycanın maddi və mənəvi mədəniyyəti çoxsaylı arxeoloji tapıntılarda, əsrlər boyu tariximizin şahidi olmuş abidələrdə əks olunmuşdur. Bu tapıntılar Azərbaycan Respublikası ərazisində aparılan tikinti işləri və arxeoloji qazıntılar zamanı aşkar edilmişdir. XX əsrin 30-cu illərində Abşeronun Binəqədi rayonunda minilliklər boyu yaşamış vəhşi heyvanların qalıqları aşkar edilmişdir. XX əsrin 60-cı illərində Qarabağın dağlıq hissəsində, Füzuli rayonunda Azıx mağarasının kəşf edilməsi epoxal hadisə olmuşdur. Burada respublikamızın ərazisində ən qədim insan məskəni tapılmışdır. Bu kəşf bütün dünya alimlərinə Azərbaycan arxeoloqları tərəfindən burada tapılmış, yaşı 1,5 milyon ilə bərabər artefaktları öz gözləri ilə görməyə imkan yaratmışdır.

Şərq ilə Qərbin qovuşduğu məkanda yerləşən Azərbaycanın əlverişli coğrafi mövqeyi bütün dövrlərdə dünyanın qüdrətli dövlətlərinin diqqətini cəlb etmişdir. Təsadüfi deyil ki, bu ərazi həmişə qonşu dövlətlər arasında bir növ "nifaq alması" olmuş, mütəmadi olaraq hərbi münaqişələr meydanına çevrilmişdir. Sivilizasiyaların qovuşduğu məkanda yaşayan xalqımız bura köçüb gəlmiş xalqların mədəniyyətindən bəhrələndiyi kimi, eyni zamanda

qonşu dövlətlərin mədəniyyətlərinə böyük təsir göstərmişdir. Bu dövlətlərin əksəriyyəti orta əsrlərdə dünya dövlətləri statusuna malik idi. Fatehlərin bu əraziləri ram etdikdən sonra yüksək səviyyəli ustaları, sənətkarları, memarları, yazıçıları hərbi əsir kimi özləri ilə aparmaları buna imkan yaradırdı.

Azərbaycanın görkəmli ziyalıları, alimləri və yazıçıları, mədəniyyət və elm xadimləri: Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Əhmədbəy Cavanşir, Mirzə Adıgözəlbəy, Rəşidbəy Əfəndiyev, Cəlil Məmmədquluzadə və başqaları milli diyarşünaslığın inkişafına sanballı töhfələr vermişlər. Onlar fəal maarifçilik işi ilə məşğul olmuş, diyarşünaslıq muzeyləri təşkil etmiş, nəticədə Azərbaycan tarixinin, xalqının maddi mədəniyyətinin öyrənilməsi üzrə elmi araşdırmalar aparmış, müəyyən nəticələr əldə etmişlər. Buna misal olaraq C. Məmmədquluzadənin 1890-cı ildə Naxçıvanın Nehrəm kəndindəki məktəbin nəzdində kiçik bir diyarşünaslıq muzeyi yaratmağa müvəffəq olduğunu söyləyə bilərik.

Milli Azərbaycan Tarixi Muzeyində saxlanılan material və eksponatlar Azərbaycan xalqının çoxəsrlik zəngin tarixini əks etdirir. 1920-ci ildə Azərbaycan İnqilab Komitəsinin (Azrevkom) Azərbaycan Dövlət Muzeyi yaradılması haqqında dekreti ilə əsası qoyulmuş Muzey Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra yaradılmış ilk elmi müəssisə olmuşdur.

Muzey 1936-cı ildən SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının (EAAzF) tərkibində fəaliyyət göstərmişdir. O, 1945-ci ildən indiyə qədər elmi-tədqiqat və mədəni-maarif müəssisəsi kimi Azərbaycan Milli Elmlər Akademiyasının strukturuna daxildir. Muzeyin elmi planları Azərbaycan tarixinin bütün dövrlərinin tədqiq edilərək öyrənilməsini əhatə edir.

XX əsrin əvvəlində respublikamızda tədqiqat işlərinin əhatə dairəsi məhdud, öyrənilmə səviyyəsi zəif olduğu üçün hələ sovet hakimiyyətinin ilk illərində Azərbaycanın, onun zəngin tarixinin hərtərəfli öyrənilməsi genişmiqyaslı işlərin həyata keçirilməsini zəruri edir. Elmi kadrların kəskin qıtlığı şəraitində belə,

Azərbaycanın elmi ictimaiyyəti qarşısında geniş miqyaslı problemlərin həlli nəzərdə tuturdu. Muzeyin əməkdaşları qarşısında rusiyalı alim və mütəxəssislərin köməyi ilə bu boşluqların aradan qaldırılması, Azərbaycanın tükənməz təbii və tarixi sərvətlərinin planlı şəkildə öyrənilməsi problemi bir vəzifə kimi qoyulurdu. Bu baxımdan Azərbaycan xalqının maddi mədəniyyət abidələrinin bərpasına xüsusi diqqət yetirilməsi, elmi baxımdan hərtərəfli öyrənilməsi üçün tədbirlər planının hazırlanması vacib amillərdən idi.

Keçən əsrin 20-ci illərinin əvvəlində respublikada bütün elmi araşdırmalar əsasən Azərbaycan Dövlət Universitetində aparılırdı. Azərbaycan Dövlət Muzeyinin əməkdaşları onların qarşısında qoyulan vəzifələri yerinə yetirmək üçün bu tədris müəssisəsinin Şərqşünaslıq fakültəsinin mütəxəssisləri ilə sıx əməkdaşlıq edir, həmin fakültədə Azərbaycanın, Yaxın və Orta Şərq ölkələrinin tarixinin hərtərəfli öyrənilməsini təmin etmək üçün genişmiqyaslı planlar tərtib edirdilər. Sovet dövrü illərində də bu işlər davam etdirilmişdir.

Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illərdə mədəni və maarif müəssisələrinin işi yeni inkişaf mərhələsinə qədəm qoydu, görülən tədbirlərin köklü dəyişilməsinə təkan verdi. Ulu öndərin şəxsi təşəbbüsü ilə respublikada bir sıra ev muzeylər: Bakıda Üzeyir Hacıbəylinin, Səməd Vurğunun, Cəfər Cabbarlının, Bülbülün, Niyazinin və başqalarının, Naxçıvanda Hüseyn Cavidin ev muzeyi fəaliyyətə başladı.

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə respublika rəhbərliyinə qayıdışı Azərbaycan alimləri qarşısında mühüm vəzifələr, o cümlədən Azərbaycan tarixinin, xüsusən XIX- XX əsrlər tarixinin obyektiv və hərtərəfli öyrənilməsi vəzifəsini zəruri etdi. Yeddi cildlik "Azərbaycan tarixi" hazırlanıb nəşr edildi.

Ümummilli lider Heydər Əliyevin elm, mədəniyyət və sosial sahələrin inkişafına yönəlmiş fəaliyyət xəttini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev davam etdirir. Respublikanın əsas elmi mərkəzinə – Milli Elmlər Akademiyasına

verilən önəm son illərdə bir sıra elmi tədqiqat təşkilatlarına, o cümlədən Azərbaycan Milli Tarixi Muzeyinə dövlət tərəfindən sanballı maddi, maliyyə dəstəyi göstərməsilə nəticələndi. Prezident İlham Əliyevin fərmanına əsasən aparılmış bərpa işlərindən sonra 2008-ci ildə Muzeyin ekspozisiyası yeni materiallar, sənədlər və eksponatlar ilə zənginləşdirildi. Bu dəyişikliklər yalnız Azərbaycan müstəqillik əldə etdikdən sonra mümkün oldu.

Dövlət başçısının səmərəli, müdrik siyasəti regionların iqtisadi və sosial-mədəni inkişaf səviyyəsinin yüksəlməsinə imkan verdi, Azərbaycanın bir sıra rayonlarında yeni diyarşünaslıq muzeylərinin yaradılmasına şərait yarandı.

Azərbaycanda muzey işinin təşəkkülü, inkişafı sənədlər və arxiv materialları əsasında çoxsaylı tədqiqatlarda əks olunmuşdur. İstər Azərbaycan Tarixi Muzeyinin əməkdaşları, istərsə də başqa tədqiqatçılar: Y.I. Qummel, S.M. Qazıyev, V.N. Leviatov, M.A. Qazıyev, P.Ə. Əzizbəyova, S.O. Hüseynova, V.Y. Qarnik, N.A. Paşayeva, A. Bayramova, A.T. Baxşıyeva və digərləri bir sıra elmi əsərlər ortaya qoydular.

Bu işdə Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin nəzdində fəaliyyət göstərən Azərbaycanda elmi irsin toplanması və sistemləşdirilməsi mərkəzinin fondlarında saxlanılan arxiv materialları əsasında Azərbaycan Dövlət Muzeyinin (indiki Azərbaycan Milli Tarixi Muzeyi) 1920-1960-cı illərdə təşəkkülü və inkişafı tarixini işıqlandıra biləcək bu toplunun zəruri olduğu danılmazdır. Bu elmi-tədqiqat əsərində Muzeyin təşəkkülü, strukturunun dəyişilməsi mərhələləri, muzey işi entuziastlarının üzləşdiyi çoxsaylı çətinliklər ətraflı şərh edilmişdir.

2010-cu il Azərbaycan Milli Tarixi Muzeyi üçün yubiley ilidir. Azərbaycan Milli Tarixi Muzeyi özünün elmi əhəmiyyətinə, həmçinin ekspozisiyalarının zənginliyinə görə hazırda respublikanın ən iri muzeylərindən biridir. Onun fondlarında üç yüz minə yaxın eksponat (saxlama vahidləri) qorunub saxlanılır. Bunlar milli tariximizin, xalqımızın mədəniyyətinin inciləridir. Muzey özünün şərq sikkə kolleksiyası ilə haqlı olaraq fəxr edir. Bu

kolleksiya keçmiş SSRİ-də Ermitajdan sonra ikinci yeri tuturdu. Habelə nadir kitablar kolleksiyası respublikamızın hüdudlarından kənarda çox məşhurdur. Muzeyin materialları Əlcəzair, Fransa, Hollandiya, Yaponiya, Almaniya, Norveç və başqa ölkələrin beynəlxalq sərgilərində yüksək səviyyədə nümayiş etdirilmişdir.

Milli Azərbaycan Tarixi Muzeyi respublikada daha çox tamaşaçı cəlb edən muzey olmaqla yanaşı, onlarda öz tarixinə maraq doğuran muzeylər sırasındadır. Bura məktəblilər, tələbələr, turistlərlə yanaşı, siyasətçilər, ictimai xadimlər, alimlər, mədəniyyət və incəsənət işçiləri təşrif buyururlar. Azərbaycan xalqının maddi, mənəvi mədəniyyətini əks etdirən ekspozisiya haqqında onların təəssüratları muzeyə gələnlərin rəy kitabında öz əksini tapmışdur.

Bu tədqiqat əsəri  Azərbaycan tarixi ilə maraqlanan geniş oxucu auditoriyası ilə yanaşı, muzeyşünaslar üçün istinad ediləcək bir əsərdir.

Nəşr Azərbaycanda muzey işinin yaranma və inkişafı tarixinin 90 illik yubileyinə həsr edilmişdir.

## Azərbaycan Dövlət Muzeyinin yaradılmasının məqsəd və vəzifələri

Muzeyin əsas vəzifəsi əhalini maarifləndirmək, mədəniyyəti, elmi bilikləri təbliğ etməklə yanaşı, qədim Azərbaycan ərazilərinin inkişaf yolunu əks etdirən azəri türklərinin bu torpaqlarda məskunlaşma tarixinin salnaməsini sənədlərlə, arxeoloji ekspedisiyalarda aşkar edilmiş faktiki materiallarla, eksponatlarla təsdiq etməkdir. Muzey türk dünyasının qürur mənbəyidir. Keçən əsrin 20-ci illərində, respublikada muzey işi öz inkişaf mərhələsinə qədəm qoyduğu andan, Azərbaycan əhalisinin əksəriyyətinin savadsız olduğu bir dövrdə muzey əməkdaşlarının qarşısında ümumtəhsil məsələləri öndə dururdu. Bu dövrdə Azərbaycan Dövlət Muzeyinin əməkdaşları dövlət idarələrində, müəssisələrdə, fəhlə klublarında, kənd icmalarında məruzələrlə çıxış edir, müntəzəm surətdə lektoriyalar təşkil edirdilər. Muzeyin əməkdaşları Azərbaycan tarixinə aid dərs vəsaitləri tərtib edirdilər. Y.A. Paxomovun 1925-ci ildə çapdan çıxmış “Azərbaycan tarixinin qısa oçerki” əsəri bu fəaliyyətin parlaq nümunəsi sayıla bilər.

Ölkədə elmi tədqiqatlar sisteminin olmadığı bir dövrdə yaranmış Azərbaycanı öyrənən və tədqiq edən cəmiyyətdə (Tədqiq və Tətəbbö Cəmiyyəti) aparılan elmi fəaliyyət həmin dövrdə muzey işi üçün xüsusi aktuallıq kəsb edirdi.

Muzeylərin yaradılması respublikanın rayonlarında diyarşünaslıq işinin təşkilində mühüm rol oynamışdır. Muzey əməkdaşlarının bilavasitə köməyi ilə mədəniyyət ocaqları funksiyalarını yerinə yetirən tarix-diyarşünaslıq müəssisələrinin fəaliyyəti tənzimlənmişdir. Lakin muzeyin əsas vəzifəsi, xüsusən onun fəaliyyətinin ilk dövründə Azərbaycan tarixinin müxtəlif dövrlərinə aid materiallar toplamaqdan ibarət idi. Yeni əldə edilmiş eksponatlar əsasında muzeyin ilk ekspozisiyası yaradılır, sərgilər təşkil edilirdi. Muzeylər təşkil edildikdən sonra eksponatların toplanması işində Azərbaycan əhalisinin böyük rolu danılmazdır.

1921-ci ildə elm sahəsində ümumi ideya rəhbərliyini təmin edilməsi üçün respublika Xalq Maarif Komissarlığı yanında Akademiya şöbəsi təşkil edilmişdi. Bu şöbəyə Azərbaycan Dövlət Universiteti, Politexnik İnstitutu, Dövlət Muzeyi, Dövlət Arxivi və Dövlət Kitabxanası daxil idi.

1922-ci ilin iyulunda Akademiya şöbəsi ləğv edildikdən sonra Elmi Şura yaradıldı. Şuranın əsas vəzifəsi həm elmi tədqiqat müəssisələrində, həm də ali məktəblərdə elmi tədqiqi və elmi-pedaqoji fəaliyyətləri əlaqələndirməkdən ibarət idi. Elmi tədqiqat və mədəni-maarif səciyyəli mühüm məsələlərin sınaqdan keçirilməsi, habelə elmi əsərlərə, dərsliklərə rəylərin verilməsində elmi şuranın müstəsna xidmətləri olmuşdur.

Respublikada Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan, habelə Yaxın və Orta Şərq xalqlarının tarixinin öyrənilməsi ilə muzeylə bərabər universitetin şərqşünaslıq fakültəsi də məşğul olurdu. Qeyd etmək lazımdır ki, Azərbaycanda elmi muzey müəssisələrinin olmaması üzündən Azərbaycan xalqının maddi mədəniyyətini əks etdirən həm yeni, həm də əvvəllər aşkarlanmış qiymətli eksponatlar Tiflis Tarix muzeyində, Moskva və Leninqradın (Sankt-Peterburq) Mərkəzi muzeylərində saxlanılırdı. Azərbaycanın daxilində bu xüsusda mövcud olan eksponatlar yalnız şəxsi kolleksiyalarda təmsil olunurdu.

1920-ci ilin iyununda xüsusi ekret əsasinda Bakı Müvəqqəti İnqilab Komitəsi yanında muzey-ekskursiya bölməsi (Muzekskurs) yaradıldı. Bu bölmə muzey dəyərlərinin toplanması, muzeylərin təşkil edilməsi işinə rəhbərlik edirdi. Burada keçmiş şəhər dumasının sənədləri, Azərbaycan və Şərq ölkələri haqqında statistik məlumatlar, plakatlar, diaqramlar, çap materialları saxlanılır, çapdan çıxmış və ya istehsalda olan mətbuat və bədii nəşr nümunələrinin toplanması üzrə nəşriyyatlarla, o cümlədən qəzet, jurnal redaksiyaları ilə iş aparılırdı.

XX əsrin 20-ci illərinin ilk rübü respublikada əsasən diyarşünaslıq-təhsil səciyyəli fəal muzey quruculuğu dövrü kimi dəyərləndirilməlidir. 1920-ci ildə Y.N. Staneviçin təşəbbüsü ilə

Bakı müəllimləri tərəfindən pedaqoji diyarşünaslıq dərnəyi yaradıldı. Bu dərnəyin vəzifəsi muzeylər, laboratoriyalar və ekskursiyalar təşkil etməkdən ibarət idi. Y.N. Staneviçin rəhbərlik etdiyi dərnək elə o zaman Muzekskurs adı ilə Xalq Maarif Komissarlığının tərkibinə daxil edildi. Daimi binası mövcud olmayan, müvəqqəti olaraq Bekendorfun malikanəsində iki kiçik otaqda yerləşən Muzekskurs gələcək muzey üçün materiallar toplamağa başladı.




***Bakıda neft sahibkarı Bekendorfun keçmiş malikanəsi (hazırda Rüstəm Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi)***

Onun ilk materialları arasında 103 nüsxə Yunan, Roma, Şərq və başqa sikkələrdən ibarət kolleksiya vardı. İyul ayında Muzekskursa əvvəllər iri neft sənayeçisi Hacı Zeynalabdin Tağıyevə məxsus evdə yer ayrıldı, biologiya, tarix-arxeologiya bölmələri yaradıldı və beləliklə muzey öz fəaliyyətinə başladı. Muzeydə numizmatika kabineti, pedaqoji fəaliyyəti həyata keçirən bir sıra yardımçı müəssisə, o cümlədən səyyar dərs vəsaitləri muzeyi, mərkəzi fizika-kimya kabineti, onun nəzdində kinematoqraf kabineti, ekskursiya bürosu, qədim abidələrin, incəsənət nümunələrinin mühafizəsi üzrə komissiya, kitabxana və başqa bölmələr yaradıldı.

Ləğv edilmiş muzeylərin, kabinetlərin qalan əmlakının – Bakıdakı keçmiş 2 nömrəli realnı məktəbin kolleksiyalarının, Bakı bazar günü məktəbinin, əsası Txorjevski tərəfindən qoyulmuş Pedaqoji Muzeyin, keçmiş Azərbaycan Parlamenti yanında X. Mirzəcamalov tərəfindən yaradılmış kiçik Tarix-Arxeologiya Muzeyinin əmlaklarının Muzekskursa verilməsi onun genişlənməsi və zənginləşməsinə yardımçı oldu.

1921-ci ilin əvvəlində Y.N. Staneviç Muzekskursa rəhbərlik etməkdən imtina etdiyi üçün S.N. Savelyev onun yeni rəhbəri kimi fəaliyyətə başladı. Yeni təyin olunmuş S.N. Savelyevin dövründə Qədim abidələrin mühafizəsi üzrə Komissiyanın arxiv bölməsi dövlət arxivi statusu aldı, Muzekskursun adı dəyişdirilərək Muzarxiv (Xalq Maarif Komissarlığının Muzey və Arxivlər Yarımşöbəsi) adlandırıldı. Xalq Maarif Komissarlığı yanında M. Ağayev və X. Mirzəcamalovun təşəbbüsü ilə təşkil edilmiş Tarix-Arxeologiya Komissiyası bundan əvvəl həmin bölməyə birləşdirilmişdi. Bir müddətdən sonra arxiv muzeydən tam ayrıldı və muzey Azərbaycan Dövlət Muzeyi kimi fəaliyyətini davam etdirdi. Tədricən sırf pedaqoji şöbələr muzeydən ayrılmağa başladı: 1922-ci ildə Mərkəzi Fizika-Kimya Kabineti fəhlə fakültəsinə verildi, 1923-cü ildə Ekskursiya Bürosu və Tədris Vəsaitləri Muzeyi fəaliyyətini dayandırdı. 1923-cü ildə isə qədim abidələrin Mühafizəsi üzrə Komissiya Arxeologiya Komitəsinə verildi.

Muzey quruculuğu sahəsində təcrübəli mütəxəssislərin olmaması bir müddət bu sahədə işlərin kortəbii surətdə təşkil edilməsinə, iş prosesinin müxtəlifliyi isə muzeyin adının tez-tez dəyişməsinə səbəb olurdu: “Xalq Maarif Komissarlığının Muzekskurs Yarımşöbəsi yanında Doğma Diyar Tədris Muzeyi”, “Əyani Vəsaitlər Muzeyi”, “İstiqlal” Doğma Diyar Muzeyi. Azərbaycan SSR Dövlət Muzeyi hüquqi cəhətdən tam rəsmiləşdirildikdən sonra o, həm muzey işi mərkəzinə, həm də respublikada tarix, arxeologiya, numizmatika, arxiv işi, şərqşünaslığın öyrənilməsi üzrə mərkəz statusu aldı.

Muzeydə elmi tədqiqat işinə muzey sahəsinin entuziastları ilə bərabər tarixçilər, arxeoloqlar, qədim əşyaların həvəskarları, kolleksionerlər və başqaları cəlb edilirdi. Moskva arxeologiya cəmiyyətinin Azərbaycan bölməsinin idarə heyəti Azərbaycanda arxeologiyanın inkişafı üzrə mühüm mərkəz kimi muzeyin təşəkkülünə və inkişafına çox böyük köməklik göstərmişdi. Azərbaycan arxeoloqlar məktəbinin banisi akademik İ.İ. Meşşaninovun əsərləri Azərbaycanın keçmişinin öyrənilməsi işinə sanballı töhfələr vermişdir. Azərbaycan arxeologiyası dünya arxeologiya elminin diqqətini özünə cəlb edirdi. XIX əsrin ortalarından başlayaraq Azərbaycan tarixinin öyrənilməsi tanınmış arxeoloq alimlərdən M.N. Nikolski və A.A. Ivanovskinin adı ilə bağlıdır. Qədim Qafqazın, o cümlədən Azərbaycan tarixinin öyrənilməsi işində akademik N.Y. Marrın müstəsna xidmətləri olmuşdur.

1922-ci il martın 25-də RSFSR Xalq Maarif Komissarlığının Kollegiyası "Muzey fondlarından şərq incəsənət əsərlərinin Azərbaycan muzeyi üçün ayrılması haqqında" qərar qəbul etmişdi. Əhatəli ekspozisiyaların təşkil edilməsi sahəsində materialların toplanılması kimi məsuliyyətli, çətin iş prosesində mərkəzi muzeylərin köməyi danılmazdır. Tretyakov qalereyası Azərbaycan Dövlət Muzeyi üçün rus rəssamlarının əsərlərindən ibarət kolleksiya ayırmışdı, Leninqradın muzey fondlarından Azərbaycana aid maddi mədəniyyət inciləri geri alınmışdı. 1928-ci ilin yanvarında SSRİ Xalq Komissarları Soveti yanında xüsusi komissiyanın iclasında İttifaqın iri muzeyləri arasında vəsaitlərin bölünməsi məsələlərinə dair müzakirələrdə Azərbaycan Dövlət Muzeyinə 4 min rubl məbləğində vəsait ayrılması haqqında qərar qəbul edilmişdi. Bütün bu tədbirlər muzey işinin yenidən qurulmasına, inkişaf etməsinə əlverişli şərait yarada bildi.

## Muzeyin strukturu

Xüsusi sərəncamlar, dekretlər, qərarlar qəbul edildikdən sonra respublikada bütün mədəni-maarif müəssisələrinin milliləşdirilməsi, tarixi-incəsənət abidələrinin mühafizəsi kimi aktual problemlərin həlli həyata keçirilməyə başladı. Bu dekretlər əsasında 1920-ci il mayın 18-də Azərbaycan Dövlət muzeyi yaradıldı və o, görkəmli neft sənayeçisi, mesenat Hacı Zeynalabdin Tağıyevin malikanəsində yerləşdirildi.



***1920-ci ildə Azərbaycan Dövlət Muzeyinin H.Z.Tağıyevin evindəki binası***

Azərbaycan Dövlət Muzeyi Azərbaycan SSR Xalq Maarif Komissarlığı Baş Elm İdarəsinin tabeliyində fəaliyyətə başladı. Muzeyin iş planları, smetası və fəaliyyəti haqqında hesabatlar həmin idarəyə təqdim edilirdi. Azərbaycan Dövlət Muzeyinə Baş Elm İdarəsinin təqdimatına əsasən Xalq Maarif Komissarlığının Kollegiyası tərəfindən təyin edilən direktor rəhbərlik edirdi. O, bütövlükdə muzey işinin təşkilinə, muzey əmlakının qorunub mühafizə edilməsinə cavabdeh idi.

Direktor müavini funksiyalarını elmi katib yerinə yetirirdi. Elmi məsələlərin müzakirəsi elmi şura tərəfindən həyata keçirildi. Ekspozisiyaların planlarına, materialların toplanması, eksponatların saxlanılması və inventarlaşdırılması məsələlərinə bu şuranın iclaslarında baxılır, həmin sənədlər təsdiq edilir, ekspozisiyalarla əlaqədar məruzələr dinlənilirdi.

Azərbaycan Dövlət Muzeyi rayon muzeylərinin fəaliyyətinə rəhbərlik edirdi. Muzeyin maliyyələşdirilməsi Azərbaycan SSR Xalq Maarif Komissarlığının smetası əsasında həyata keçirilirdi. İdarə və müəssisələrdə sərgilər təşkil etmək üçün ayrılan vəsaitlər, habelə köməkçi müəssisələrin istismarından, xüsusi nəşrlərin satışından, muzeyə giriş haqqından, muzeyin elmi əmlakının satışından əldə edilən vəsaitlər smetada nəzərə alınırdı. Muzey ləğv ediləcəyi təqdirdə bütün elmi, texniki avadanlıq elmi və bədii kolleksiyalar, ayrı-ayrı eksponatlar, kitabxana, arxiv və s. Xalq Maarif Komissarlığının tabeliyinə keçirilməsi nəzərdə tutulurdu. Arxiv sənədlərinə əsasən Azərbaycan Dövlət Muzeyi dörd şöbədən ibarət idi. Bu şöbələr öz növbəsində aşağıdakı yarımşöbələrə bölünürdü :

1) müəssisənin adı - Azərbaycan Dövlət Muzeyi. Ünvan: Az.SSR, Bakı şəhəri, Malıgin küçəsi, № 6. Yaradıldığı il – 1920.

2) xarakteri – diyarşünaslıq; müəssisənin vəzifəsi – elmi müəssisə.

3) əsas şöbələr və onların rəhbərləri: a) təbiət-tarix şöbəsi və onun dörd yarımşöbəsi: geologiya, zoologiya, botanika və entomologiya. Elmi rəhbər – prof. Yelpatyevski V.S., şöbə müdiri – Cəfərov R.; b) tarix şöbəsi və onun üç yarımşöbəsi: tarix, arxeologiya, etnoqrafiya. Elmi rəhbər – prof. Pçelin N.N.; c) rəssamlıq şöbəsi və onun iki yarımşöbəsi – şərq və qərb incəsənəti. Mühafizəçi – rəssam Fabri M.A.; ç) ədəbi teatr şöbəsi. Mühafizəçi – Şərifov A.K.

4) eksponatların və kitab cildlərinin sayı: a) incəsənət şöbəsində – 2 364; b) ədəbi teatr şöbəsində – 2 500; c) tarix şöbəsində – 2 603; ç) təbiət-tarix şöbəsində – 38 325. Kitabxanada 6 828 cild kitab vardır.

5) şöbələr üzrə elmi işçilər, onların ixtisası:

a) təbiət-tarix şöbəsi: Yelpatyevski Vladimir Sergeyeviç, professor; Cəfərov Rahim, zooloq; Prilipko Leonid İvanoviç, botanik; Xəlilov Cəlil, geoloq (tələbə); Lazımov Cəlil, botanik (tələbə);

b) tarix şöbəsi: Pçelin Nikolay Nikolayeviç, professor; Cəfərzadə İshaq, arxeoloq, müəllim; Paxomov Yevgeni Aleksandroviç, müəllim; Quliyeva Mariya Vladimirovna, etnoqraf (tələbə);

c) incəsənət şöbəsi: Fabri Moris Alfredoviç, rəssam, müəllim; Obolenski Vladimir Andreyeviç, rəssam, müəllim;

ç) ədəbiyyat və teatr şöbəsi: Şərifov Ağakərim, teatrşünas.

1927-ci ildə Azərbaycanı öyrənən və tədqiq edən cəmiyyət tərəfindən D.Şərifovun "Yaloylutəpə qazıntıları", "Qəbələ şəhər yerinin müayinəsi", "Nuxa qəzasının 3-4 rayonunun kəndli malikanəsi", "Qədim Nuxa qəzasının bəzi incəsənət abidələri" adlı kitablar nəşr edilmişdir. 1928-ci ildə Azərbaycan Dövlət Muzeyi aşağıdakı əsərləri nəşr etmişdir: Şvann-Quriyski – "Az.SSR səhraları", "Tuberozlar", "İnciçiçəyi", "Rozmarin"; Paxomov Y.A. – "Azərbaycan Dövlət Muzeyinin sikkə kolleksiyası".

## XX əsrin 20-ci illərində muzeyin fəaliyyəti

XX əsrin 20-ci illərində sırf pedaqoji şöbələr tədricən muzeydən ayrılmağa başladı, qədim abidələrin mühafizəsi üzrə komissiya isə 1923-cü ildə Azərbaycan arxeologiya komitəsi kimi fəaliyyətini davam etdirməyə başladı. Beləliklə, muzey tədricən özünün elmi-maarifçilik fəaliyyətinin əhatə dairəsini konkretləşdirdi. 1924-cü ilə qədər muzeyin formalaşması artıq başa çatmışdı. 1924-cü ildə muzey kitabxanasının yenidən təşkil edilməsi, 1927-ci ildən isə «muzeyin materialları» artıq dərc edilirdi. Bu, həm Rusiya Elmlər Akademiyası, həm də başqa elmi müəssisələr, elmi muzeylər, universitetlər ilə nəşrlər mübadiləsinə köməklik göstərirdi. Kitabxana muzeyin profilinə, elmi vəzifələrinə uyğun dövri nəşrlər və kitablar hesabına zənginləşirdi.

Arxeologiya Komitəsi özünün fəaliyyətdə olduğu bütün müddət ərzində əsas diqqəti Azərbaycanın inkişaf tarixinə birbaşa aidiyyəti olan materiallar, eksponatlar toplanılmasına yönəltmişdi. Bu zərurət daxilolmaların əksəriyyətinin təsadüfi xarakter daşıması və məktəb vəsaitlərinin səviyyəsinə uyğun gəlməsilə əlaqədar idi. Buna görə də 1924-1925-ci illərdə “Bütövlükdə Azərbaycanın inkişaf tarixi” mövzusunda müxtəlif sərgilər üçün eksponatların seçilməsi, fond üçün sistematik materialların toplanılması məqsədilə səfərlər təşkil edilmişdi.

1925-ci ildə muzeydə Etnoqrafiya yarımşöbəsi təşkil edilmiş, respublikada yaşayan müxtəlif millətlərin həyat tərzini təsvir edən bələdçi kitabları hazırlanmışdı. Yarımşöbənin eksponatları Azərbaycan əhalisinin həyatını, özünəməxsus bənzərsizliyini, mənəvi mədəniyyət nailiyyətlərini əks etdirirdi. Bu məqsədlə maldarların yay fəsli üçün nəzərdə tutulan müvəqqəti səyyar mənzili – alaçıq sərgiyə qoyulmuşdu.



***Köçəri maldar təsərrüfatı: alaçıq***

Kəndlilərin yaylaq* həyatını – yun əyrilməsi, nehrə çalxalanması səhnələrini əks etdirən eksponatlar sərgiyə gələnlərin böyük marağına səbəb olmuşdu. Otaqların birində yerləşən ekspozisiya ortabab kəndli məişətini əks etdirən maketlə nümayiş edilmişdir. Bu otaqda sərgilənən təsərrüfat əşyaları, geyim nümunələri əkinçilik təsərrüfatı haqqında təsəvvür yaradırdı. Maldarlıq təsərrüfatına həsr edilmiş ekspozisiyada yun istehsalı, onun emalı – sapın əyrilməsi, xalçaların toxunma texnikası nümayiş etdirilirdi.

---

* Əslində, Azərbaycanda heç bir zaman köçəri maldar təsərrüfatı mövcud olmamışdır. Sadəcə maldarlıqla məşğul olanlar isti yay aylarında öz təsərrüfatları ilə birlikdə sərin yaylaqlara üz tuturdular. Onların təsbit olunmuş yaşayış yerləri var idi, qış aylarında onlar digər təsərrüfat işləri ilə məşğul olurdular (məlumat üçün bax: Z.Hacıyeva "Qarabağ xanlığının tarixşünaslığı" , Bakı, 2005, s.150).



*Oturaq əkinçi təsərrüfatı*

Bu ekspozisiya tamaşaçılara türk mənşəli qadınların bədii yaradıcılığı, vərdişləri, məişəti, ev əşyaları, ümumiyyətlə həyat tərzi haqqında bilgiləri əldə etməyə imkan yaradırdı. Əkinçilik təsərrüfatına aid ekspozisiyada o dövrdə taxılçılığın, barama istehsalının inkişafında müəyyən nailiyyətlər əldə etmiş Nuxa, Göyçay qəzalarının təsərrüfatları nümayiş etdirilirdi. Həmin qəzaların bütün əhalisi azəri türkləri (azərbaycanlılar) idi. Dörd vitrində ipəkqurdunun yetişdirilməsi üçün otaqlar, baramanın kustar üsulla açılması prosesi, ipək əyirici dəzgahın inkişaf tarixinə aid səhnələr və emal edilən parçaların nümunələri təqdim edilirdi.

Ekspozisiyanın digər otağında Azərbaycanda yaşayan milli azlıqların məişətinə, yaşayış tərzinə həsr edilmiş maketlər quraşdırılmışdı. Eksponatlar müxtəlif millətlərə (udinlər, talışlar, tatlar, farslar) aid ayrı-ayrı qruplar şəklində nümayiş olunurdu.

1928-ci ilin sentyabr ayında Muzeyin Etnoqrafiya yarımşöbəsi Nuxa və Göyçay qəzalarının taxılçılıq, ipəkçilik xüsusiyyətlərini araşdırmaq məqsədilə ekspedisiya təşkil etmişdi. Bu səfərin əsas vəzifələri kəndli məişətini tədqiq etmək, öyrənmək, nəticəsini yarımşöbənin ekspozisiyasında nümayiş etdirmək idi.

Ekspedisiyanın nəticələrinə əsasən bu rayonlarda taxıl, ipək istehsalı sahəsində çalışan əkinçinin səciyyəvi otağı yaradılmış, maddi mədəniyyət əşyalarının maketləri, fotoşəkillər, planlar, cədvəllər, kəndli təsərrüfatının nümunələri nümayiş etdirilirdi.

Tarix-Etnoqrafiya Şöbəsinin Kollegiyasının 28.02.30-cu il tarixli qərarına əsasən tarix şöbəsinin ekspozisiyasında Azərbaycanın maddi mədəniyyətini aşağıdakı bölmələrdə təqdim etmək qərara alınmışdı:

1) köçəri məişət (qəbilə quruluşundan kapitalizmin yayılmasına qədər);

2) yarımköçəri məişət (qəbilə quruluşundan kapitalizmin yayılmasına qədər);

3) əkinçi məişəti (primitiv əkinçilikdən mexanikləşdirilmiş müasir əkinçiliyə qədər);

4) şəhər və onun inkişafı: sənətkar-sənaye kəndi, sənətkar-ticarət şəhəri, sənaye şəhəri.

İş planına əsasən ilk növbədə Bakıya yaxın rayonları tədqiq etmək nəzərdə tutulurdu. Lənkəran, Quba qəzalarına aid materiallar sistemləşdirilərək toplanıldıqdan sonra işlənildi. Yaloylutəpə, Qəbələ, Çovdar kəndi yaxınlığında bir sıra arxeoloji qazıntılar aparılmışdı. Sonradan Azərbaycan SSR-in şimal bölgələrində, Nuxa və qismən Şamaxı qəzalarının öyrənilməsi işinə start verildi. Şimal qəzalarının tədqiq edilməsinin əsas məqsədi öyrənilən ərazilərin əhalisinin bənzərsiz xüsusiyyətlərini araşdırmaq, onların məişətini, təbii həyat şəraitini, eləcə də bu diyarın təbiətini – flora, fauna və geologiyasını açıqlayan faktiki materiallar əldə etməkdən ibarət idi. Gəncə qəzasına təşkil ediıən çoxsaylı ezamiyyət və ekspedisiyalar, o cümlədən Abşeron yaxınlığındakı adaların tədqiq edilməsi zəngin faktiki material toplamağa imkan yaradırdı.

RSFSR Mərkəzi Dövlət Muzey Fondu ilə yanaşı digər müəssisələrə edilmiş ezamiyyələr nəticə etibarilə çox səmərəli oldu. Muzeyin şərq incəsənəti şöbəsi üçün bir sıra eksponatlar – İran çinisi, bürünc, türk xalqlarının istehsal etdikləri parçalar və tikmələr alınmışdı. Muzeydə daimi fəaliyyət göstərən emalatxanada zəruri

eksponatlar (maketlər, müqəvvalar və s.), arxeoloji əşyaların bərpası üçün tarix şöbəsi yanında laboratoriya və fotolaboratoriya fəaliyyət göstərirdi.



***Azərbaycan Dövlət Muzeyinin 1920-ci illərdəki Sərai salonu***

Azərbaycan Dövlət Muzeyinin t**arix-arxeologiya şöbəsinin** materialları dövrlər üzrə sərgilənmişdi: daş dövrü, tunc dövrü, dəmir dövrü, xanlıqlar dövrü və çar hakimiyyəti dövrü.

Daş dövrü şöbəsində ibtidai insanın düzəltdiyi alətlərin reproduksiyaları nümayiş etdirilirdi. Daş dövrünə aid eksponatlar mərkəzdən göndərilmiş, habelə Bekendorfun kolleksiyasından seçilmiş eksponatlarla, Fransa və İsveçrə tapıntıları ilə təmsil olunmuşdu.

Tunc dövrü şöbəsində Azərbaycan Dövlət Muzeyinin 1926-1927-ci illərdə Çovdar, Yaloylutəpə, Qızıl Vənk, Kürdüstan və Qəbələ məntəqələrinə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti ilə birgə təşkil edilmiş ekspedisiyalar zamanı aşkar edilmiş eksponatlar nümayiş etdirilirdi.

Silahların inkişaf tarixinə xüsusi diqqət yetirilirdi. Oxun silah kimi istifadə edilməsi cəmiyyətdə müxtəlif bəzək əşyalarının miqdarının, istehsalının artması ilə nəticələnmişdi. Bu hadisə insanların həyat şəraitinin yaxşılaşmasına zəmin yaradırdı. Materiallar ayrı-ayrı mədəniyyətlər üzrə nümayiş etdirilirdi: qara gil, boz gil, qırmızı gil mədəniyyəti, rəngli keramika.

Dəmir dövrünə aid şöbədə Yaloylutəpə mədəniyyəti – qab fraqmentləri, Bərdə, Gəncə, Şamaxı və Qəbələ şəhərlərindən tapılmış əşyaların hissələri sərgilənmişdi. Dəmir əşyalardan qılınclar, xəncərlər, çapacaqlar, yatağanlar və zirehli geyimlər

nümayiş etdirilirdi. Bu sərginin məqsədi tamaşıçıları Azərbaycanda şəhər mədəniyyəti ilə yanaşı, Azərbaycan ərazisində metal istehsalının qədim tarixə malik olduğunu nümayiş etdirmək idi.

XVIII əsr Azərbaycan tarixinin xanlıqlar dövrü Qarabağ (Şuşa şəhəri), Gəncə, Şamaxı və Bakı xanlıqları ekspozisiyasında əks etdirilmişdi. Burada o dövrün odlu silahları (fitil və çaxmaq-daşla işləyən silahlar), Şuşa darvazasının, Gəncə, Bakı, Quba qalalarının açarları, habelə Bakı və Şamaxı şəhərlərinin, Suraxanı atəşgahının maketləri nümayiş etdirilirdi. Ekspozisiyada XVIII-XIX əsrlərdə Azərbaycanı idarə etmiş şahların – Nadir şahın, Ağa Məhəmməd Şah Qacarın, Fətəli Şah Qacarın portretləri; Rubonun 1812-ci ildə Lənkəran qalasının alınmasını təsvir edən tablosu, Azərbaycanlı çar məmurları Kəlbəli xan Naxçıvanski, Kərim bəy Novruzov-Kəngərlinski, mülkədar Həsən bəy Ağalarovun portretləri nümayiş etdirilirdi. XIX əsrin silahlı kəndli maketi böyük marağa səbəb olmuşdu.

Azərbaycan SSR Xalq Maarif Komissarlığının qərarına əsasən 1924-cü ildən Azərbaycan Dövlət Muzeyində İncəsənət şöbəsi yaradıldı. Bu şöbə Şərq və Qərb incəsənəti yarımşöbələrinə bölündü, Azərbaycan dövlət muzeyinin fondlarından müvafiq eksponatlar: rəsm əsərləri, çini məmulatlar İncəsənət şöbəsinə təqdim edildi.

Azərbaycan Dövlət Muzeyinin 1925-ci il avqust ayı üçün Xalq Maarif Komissarlığının Baş Peşə Təhsili idarəsinə təqdim etdiyi hesabata görə muzeyin direktoru Davud Şərifov, incəsənət şöbəsinin müdiri Fabri tarixi, etnoqrafik materiallar toplamaq məqsədilə ilə bir ay müddətinə Nuxa, Ağdaş, Göyçay qəzalarına ezamiyyətə göndərildi.



***1925-ci ildə Azərbaycan Dövlət Muzeyinin direktoru Davud Şərifov tərəfindən təşkil edilmiş ezamiyyət dövründə muzeyin əməkdaşları tərəfindən Nuxa qəzasında çəkilmiş foto***

***Ezamiyyətin nəticələrinə əsasən:***

1) rəssam Fabri və direktor Şərifov Nuxada Şəki Xan Sarayının divar rəsmlərinin bir neçə süjetinin dəqiq surətlərini çıxarmışlar (7 vahid, onlardan birinin ölçüsü 7 arşın, ikisinin ölçüsü 5 arşın);

2) tarixi, etnoqrafik və bədii dəyərə malik olan 97 fotoşəkil çəkilmişdir;

3) 28 etnoqrafik əşya, o cümlədən 2 kostyum alınmışdır.

4) Qutqaşen, Vardanlı, Bunud, Çuxur Qəbələ, Qalacıq, Həzrə kəndlərində 102 antropometrik ölçmə aparılmışdır.

5) Nuxa rayonunun yuxarı hissəsində rast gəlinən kol bitkilərinin 42 nüsxəsi muzeyə təhvil verilmişdir.

6) Həzrə kəndi yaxınlığında aşkar edilmiş tarixi abidələrin üzərindəki qədim yazılar əsasında 16 vərəq estampaj hazırlanmışdı;

7) Qəbələ şəhərinin xarabalıqlarında kəşfiyyat qazıntı işləri aparılmış, 8 arxeoloji əşya aşkarlanmışdı. Bir sıra iri həcmli tarixi

eksponatları lazımi yerlərə aparmaq üçün vəsait olmadığından onlar Ləkidə, Ucarda və Nuxada saxlanılırdı.

Arxiv materiallarından göründüyü kimi, səyyar fəaliyyətlə yanaşı, muzeyin daxilində gərgin işlər aparılmışdır, o cümlədən:

- Tarix-etnoqrafiya şöbəsi üzrə:

Yun məmulatlarda güvə və digər zərərvericiləri məhv etmək üçün ciddi dezinfeksiya aparılmış, müvafiq tədbirlər həyata keçirilmişdir. Bir sıra yeni əşya: imperator III Konstantinin hakimiyyəti dövrünə aid 5 ədəd numizmatik dəyərli qızıl Bizans sikkəsi, 3 ədəd dukat[1] və çini əşya alınmışdır.

- Biologiya şöbəsi üzrə:

Botanika yarımşöbəsinə Quba qəzası herbarisindən 162 bitki gətirilmişdir.

Qubada yığılmış 600 kəpənək zoologiya yarımşöbəsinə göndərilmiş, Muğan guşəsi üzrə işlər tamamlanmışdır.

- Zoologiya şöbəsi üzrə:

Respublika ərazisində tapılmış 19 mineralın kimyəvi və mineraloji tərkibi müəyyən edilmişdir. Nuxa və Quba qəzalarından 62 qutu torpaq nümunəsi götürülərək şöbəyə verilmişdir.

1925-ci il sentyabrın 29-da Azərbaycan Dövlət Muzeyinin direktoru D. Şərifovun sədrliyi və muzeyin elmi işçiləri R. Cəfərov, M.A. Fabri, S.M. Sısoyev, T. Sadıqinin, katib Şvann-Quriyskinin iştirakı ilə Azərbaycan Dövlət Muzeyinin və Arxeologiya Komitəsinin birgə iclasında Azərbaycan Dövlət Muzeyi üçün müəyyən eksponatların alınması məqsədi ilə Moskva, Leninqrad şəhərlərinə ezamiyyətlərin təşkil edilməsi müzakirə edilmişdir. Şərifovun çıxışından məlum olur ki, Azərbaycan Muzeyi üçün eksponatların alınması, yalnız muzey əməkdaşlarının iştirakı ilə həyata keçirilməlidir. Müşavirə iştirakçıları bu məsələ ilə əlaqədar Xalq Maarif Komissarlığı qarşısında vəsatət qaldırdılar. Xatırladaq

---

[1] İlk dəfə İtaliyada buraxılmış, sonralar Qərbi Avropanın bir sıra ölkələrində tədavüldə olmuş, gümüşdən, sonralar isə qızıldan hazırlanan sikkə. Dukat qaytanla baglanıb boğazdan asılan medal və ya medalyon şəklində bəzək əşyası kimi istifadə edilirdi.

ki, 1925-ci ilin iyununda rəssamlıq məktəbinin direktoru Samorodov, həmin ilin avqust-sentyabr aylarında rəssamlar Kosiçkin və Boqoslovskaya Muzey Fondu tərəfindən Azərbaycan Muzeyi üçün ayrılmış rəsmləri, habelə keramika, tunc əşyaları Moskva və Leninqrad muzeylərindən aldıqdan sonra, Davud Şərifov Xalq Maarif Komissarlığının Baş Peşə Təhsili İdarəsinə təqdimatla müraciət etmişdir. D. Şərifov qeyd etmişdir ki, Samorodov, Kosiçkin və Boqoslovskaya dövlət muzeyi ilə razılaşma əldə etmədən bədii dəyərə malik əsərləri özbaşına seçib aparmış, dövlət muzeyinin ekspozisiyasını zənginləşdirmək əvəzinə, Azərbaycanın rəssamlıq məktəblərində tədris kabinetlərində avadanlıq kimi istifadə etmək məqsədi güdmüşlər. Bu məsələ ilə bağlı baş elm idarəsi, bu idarənin muzeylər şöbəsi həmin əşyaları mənimsəyənlərə qəti etirazını bildirmiş, qiymətli sənət əsərlərinin Azərbaycan Dövlət Muzeyinə təhvil verilməsini tələb etmişdir. Şərifov, Samorodov, Kosiçkin və Boqoslovskayanın özbaşına törətdikləri əməllərin onların səlahiyyətlərinə uyğun olmadığı açıqlanmışdır. Qərara alınmışdır ki, muzey Qərbi Avropa, o cümlədən rus mədəniyyətinə aid bədii əsərləri toplamalıdır. Məhz bu məqsədlə ayrıca şərq incəsənəti şöbəsi yaradılmış, sonralar şöbəni yeni yaradılan qərb incəsənəti şöbəsi ilə birləşdirmək nəzərdə tutulurdu. Azərbaycan Dövlət Muzeyinin direktoru aşağıdakı təklifləri irəli sürmüşdü:

1) digər respublikalarda Azərbaycan Dövlət Muzeyi yanında qərb incəsənəti şöbəsi təşkil edilsin, qəbul edilən materiallar dərhal elmi ekspertizadan keçirilsin;

2) bu işləri həyata keçirmək üçün münasib bina ayrılsın;

3) yeni yaradılan Qərb incəsənəti şöbəsinin düzgün fəaliyyəti təmin edilsin, Dövlət Muzeyinin maliyyələşdirilməsi yaxşılaşdırılsın.

Qərb İncəsənəti şöbəsinin fəaliyyət göstərməsi üçün müvəqqəti olaraq (Malıgin küçəsi, ev № 6 ünvanında Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin yerləşdiyi binanın aşağı mərtəbəsindəki otaqlar boşalana qədər) Maarif Sarayındakı otaqların verilməsi ilə yanaşı, aşağıdakı tərkibdə işçilər ştatının ayrılması təklif olunurdu: şöbə

müdiri, mühafizəçi, xadimə və gözətçi. Əmək haqqından əlavə hər ay 70 rubl vəsait ayrılmalı idi. Bu məbləğin 40 rublu tədris ehtiyaclarına, 30 rublu təsərrüfat ehtiyaclarına sərf edilməli idi. Bundan əlavə şöbənin avadanlıqları üçün birdəfəlik 2000 rubl (rəsm əsərlərinin bərpası, şkaflar, vitrinlər, çərçivələr hazırlanması və s.) vəsait ayrılmışdı.

1925-1926-cı illərdə XIX əsr rus rəssamları Borovikovski, Brüllov, Ayvazovski, Laqorio, Arqunov, Brodski, Repin, Korovin, Serov, Rubo, Makovski və başqalarının rəsm əsərləri, Qərbi Avropa rəssamları Rafael, Murilyo, Titsian və başqalarının əsərlərinin surətləri – cəmi 192 rəsm əsəri Moskva və Leninqradın dövlət muzey fondlarının mərkəzi anbarlarından Bakıya gətirilmişdir.



***Azərbaycan xalqlarının tarixi muzeyi AzFAN***
***Soldan sağa: 1) I.P. Koqnoviskaya, 2) L.P. Taşyan, 3) B.K. Aşurov 4) Brjeziskiy?, 5) M. Baxmutova (rəssam), 6), N.F. Todolskaya, 7), L. Mirzoyan, 8) A. Məmmədov, 9)?, 10), N.F. Miklaşevkiy 11)?, 12), V.N. Leviatov, 13) I. Axundov, 14), Əzim Əzimzadə, 15) O.Ş. Ismizadə.***

Onlarla birlikdə II Yekaterina dövründən II Aleksandr dövrünə qədər imperator zavodlarında hazırlanmış çini, saxsı məmulatlar, eləcə də Qardner, Popov və digərlərinin şəxsi fabriklərinin məhsulları, Qərbi Avropa manufakturalarının: meysen (Saks), Fransa (Sevr), Vyana manufakturalarının, Berlindəki imperator

zavodunun, Hollandiyadakı Delft çını zavodunun məhsulları - cəmi 342 ədəd incəsənət əsərləri gətirilmişdir, həmçinin, yenə həmin zavodlardan heykəltəraşlıq nümunələri, o cümlədən Antokolski, Opekuşinin işləri, Fyodor Tolstoyun barelyefləri və bir neçə tunc məmulat əldə edilmişdir.

Azərbaycan Dövlət Muzeyi aparılan işlər barədə yuxarı təşkilatlar qarşısında hesabat verirdi. Xalq Maarif Komissarlığının Baş Peşə Təhsili İdarəsinə göndərilmiş hesabatların birində qeyd edilir ki, 1926-cı il iyunun 22-dən iyulun 26-dək muzey əməkdaşlarının əksəriyyəti material toplamaq üçün müəyyən qəzalara ezam edilmiş, Obolenski isə RSFSR-in ləğv edilən muzey fondlarından bədii əşyalar almaq məqsədilə Moskva və Leninqrada göndərilmişdir.

Hesabatın nəticələrindən məlum olur ki, Obolenski 208 məmulat, o cümlədən:

1) Şərq çinisindən hazırlanmış 14 əşya (akt № 1086);

2) xaricdə istehsal edilmiş şüşə və çinidən hazırlanmış 133 məmulat (akt № 1085);

3) Moskva musiqi fondundan, Tretyakov qalereyasından rus rəssamlarının 45 rəsm əsərini almağa müvəffəq olmuşdur.

Göyçay və Nuxa qəzalarına səfər nəticəsində:

- Etnoqrafiya üzrə: 168 ədəd fotoşəkil, 35 ədəd müxtəlif eksponatlar, 9 ədəd rəsm əsəri (cəmi 212 ədəd);
- Tarix üzrə: 5 eksponat, əsasən qəbirüstü tikililərdə üstü yazılı daşlar və estampajlar;
- Zoologiya üzrə: 22 quş cəmdəyi və yumurtası olan 12 yuva tapılmışdır (bu əşyalar muzeyin direktoru, preparatoru tərəfindən toplanmışdır);
- Botanika üzrə: Nuxa qəzasının dağüstü sahəsinin herbarisi, 1800 nüsxədən ibarət flora nümunələri.
- Entomologiya üzrə: (həşəratları öyrənən zoologiya bölməsi) 5 347 nüsxə məmulat toplanmışdır.
- Geologiya və petroqrafiya üzrə: Nuxa qəzasının dağüstü hissəsinə aid 350 nüsxəyə yaxın material toplanmışdır.



*Davud Şərifov*

Muzeyin direktoru Davud Şərifovun Tiflisə ezamiyyətləri zamanı Qafqaz Hərbi Tarix Muzeyindən alınmış arxeoloji materiallar arasında Azərbaycan xanlıqlarının atributları əhəmiyyətli eksponatlar siyahısına daxil edilmişdir.



*Tiflis Hərbi Tarixi Muzeyi*

1925-1926-cı illərdə muzeyin tarix-etnoqrafiya şöbəsindən Şərq incəsənəti yarımşöbəsinə qiymətli Rey keramikası kolleksiyası verilmişdir. Fondun həcminin artması 1927-ci ildə rus təsviri sənət qalereyası açmağa imkan yaratmışdır. Eyni zamanda Azərbaycan Xalq yaradıcılığı üzrə bədii fond təşkil etmək vacib məsələlərdən biri idi. Qarşıya çıxan problemlərin həllinə nail olmaq məqsədilə 1928-ci ildə Azərbaycanın rayonlarına böyük ekspedisiyalar təşkil edilmiş, nəticədə çoxsaylı xalça məmulatları əldə edilmişdir.

Tarix-arxeologiya yarımşöbəsində Azərbaycan ərazilərində qazıntılar zamanı aşkar edilmiş eksponatların bərpası, quraşdırılması üzrə irimiqyaslı iş aparılmışdır. Keçmiş Qarabağ xanlarına məxsus silahlar, Lənkəran qəzasından qızıl sikkə xəzinəsi, X əsr İran sikkələri xəzinəsi və bir sıra tarixi sənədlər bu yarımşöbəyə daxil olmuşdur. Etnoqrafiya yarımşöbəsi köçəri türklərin alaçığını, geyim əşyaları, libas, bəzi bir sıra istehsal alətləri əldə etmiş, Nuxa qəzasında müasir keramika sənayesi məmulatlarından ibarət kolleksiya yaradılmışdı.

Botanika yarımşöbəsi tərəfindən Nuxa qəzasında 1 800 bitki növünü əhatə edən herbari toplanmışdır. Bundan əlavə, Quba, Gəncə, Nuxa qəzalarında təbii boya istehsalında istifadə edilən bitkilər, eləcə də əhali tərəfindən istifadə edilən müalicəvi əhəmiyyətə malik bitki növlərini aşkar etmək üçün müəyyən tədbirlər planı həyata keçirilirdi.

# AZƏRBAYCANIN RAYONLARINDA DİYARŞÜNASLIQ MUZEYLƏRİNİN TƏŞKİL EDİLMƏSİ

## *Gəncə diyarşünaslıq muzeyi*

Gəncə muzeyi 1926-cı ildə təşkil edilmişdir. Burada din əleyhinə məsələlərə dair, eləcə də dağ-mədən və toxuculuq sənayesinə aid eksponatlar toplanıb, ekspozisiyalar təşkil edilmişdir. Həmçinin 1905-ci il İnqilabı, "26 Bakı komissarı" səyyar muzeyləri fəaliyyət göstərirdi.

## *Xanlar (Yelenendorf) diyarşünaslıq muzeyi*

Bu muzey 1928-ci ildə tədris fəaliyyəti prosesində yeddiillik məktəblərin, texnikumların şagirdlərinin səyləri hesabına təşkil edilmişdir. 1929-cu ilin aprelində Yelenendorfda Azərbaycanı Öyrənən Cəmiyyətin (Tədqiq və Tətəbbö Cəmiyyəti) filialı yaradılmış, muzey yeni təşkil edilmiş Diyarşünaslıq Cəmiyyətinin tabeliyinə keçmişdi. 1929-cu ilin sentyabrında Cəmiyyətin nəzdində gənc diyarşünaslar bölməsi təşkil edildi. Sonrakı illərdə bütün xərclər cəmiyyətin üzvlük haqqı, könüllü ianələr, diyarşünaslığa aid əsərlərin satışından alınan vəsaitlər hesabına ödənilirdi.

Muzeyin əsas binasında aşağıdakı şöbələr fəaliyyət göstərirdi:

– Tarix geologiya şöbəsi;
– Arxeologiya şöbəsi;
– Təbiətşünaslıq, sənaye və kənd təsərrüfatı şöbəsi;
– Etnoqrafiya şöbəsi;
– Ədəbiyyat şöbəsi;
– Ümumi şöbə.

Muzey xüsusi stendləri nümayiş etdirir, əməkdaşlar müxtəlif mövzular üzrə məruzələrlə çıxış edirdilər: texniki vasitələr insanların təsərrüfat fəaliyyətini, məişətini necə dəyişməsi; elmin

dini xurafat üzərində qələbəsi; bizim növbəti vəzifələrimiz; üzümçülüyün səmərələşdirilməsi və mexanikləşdirilməsi və s.

1930-cu ildən Azərbaycanın rayonlarında arxeoloji kəşfiyyatlar yerli qüvvələr hesabına, əsasən Xanlar şəhəri (keçmiş Yelenendorf koloniyası) ətrafında aparılırdı. Burada Y.İ. Qummel tərəfindən arxeoloji materiallar əsasında zəngin arxeologiya şöbəsinə malik Xanlar diyarşünaslıq muzeyi təşkil edilmişdir.



***Y.İ. Hummel.1930-cu illərdə arxeoloji ekspedisiya zamanı***

1931-ci ildə Xanlar (Yelenendorf) muzeyi "Konkordiya" kooperativinin uçot şöbəsi nəzdində xüsusi üzümçülük, şərabçılıq muzeyi təşkil etmişdir. Muzeydə aşağıdakı yarımşöbələr vardı:

– Torpaqşünaslıq;
– Suvarma və meteorologiya;
– Gübrələr;
–Üzümçülük təsərrüfatının səmərələşdirilməsi və mexanikləşdirilməsi;
– Üzümün süni tozlanması;
– Üzümün ziyanvericiləri;
– Göbələk xəstəlikləri.

Maraqlı cəhət budur ki, bu muzey müstəsna olaraq alman dilində sənədləşdirilmişdir, eyni zamanda büdcədən vəsait almırdı. Muzeyin müdiri yerli müəllim Qummel idi.

### *Lənkəran diyarşünaslıq muzeyi*

Xalq təhsili şöbəsinin təşəbbüsü ilə yerli materialların toplanması həyata keçirildi və 1926-cı ildə muzey təşkil edildiyi zaman həmin materialardan istifadə edildi. 1927-ci ildə muzey yeni diyarşünaslıq materialları ilə zənginləşmiş, 1928-ci ildə isə başqa binaya köçürülərkən eksponatların bir qismi itirilmişdir. Sonradan muzeyin faktiki olaraq ləğv edilməsi prosesi başlandı, məsuliyyətsizlik üzündən eksponatlar itirildi. 1933-cü ildə muzeyin maliyyələşdirilməsi dayandırıldı, qalan eksponatlar müxtəlif müəssisə və təşkilatlara paylandı, eksponatların bir hissəsi isə səhlənkarlıq, ögey münasibət nəticəsində itirildi.

### *Nuxa (Şəki) diyarşünaslıq muzeyi*

Nuxa (Şəki) muzeyi 1926-cı ildə Azərbaycan Dövlət Muzeyinin təşəbbüsü ilə təşkil edilmişdi. Xan Sarayının keçmiş fondundan bu diyarın, ərazinin xüsusiyyətini əks etdirən materiallar və eksponatlar ekspozisiyaya cəlb edilmişdi. Sonra fondlar müxtəlif təşkilatların maddi dəyərləri, keçmiş İnqilab Muzeyinin Səyyar Stendləri hesabına genişləndi. 1932-ci ildə artıq fəaliyyətdə olan muzey yeni əldə edilmiş materialları cəlb etdikdən sonra aşağıdakı şöbələr yarandı:

– Yerli sənaye;
– Kustar sənaye;
– Kənd sənayesi;
– Mədəniyyət və məişət.

## *Naxçıvan diyarşünaslıq muzeyi*

Naxçıvan diyarşünaslıq muzeyi 1924-cü ildə təşkil edilmişdir. Onun təşkili inqilabdan əvvəl bir nəfər yerli həvəskarın topladığı materiallar kolleksiyasından istifadə edilməklə yarandı. Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə muzeyə aid olmayan materialların bir qismi muzeydən götürülmüşdür.

Xalq Maarif Komissarlığının planına görə, 1933-cü ildə respublikada Azərbaycan SSR-in aşağıdakı rayon mərkəzlərində 12 diyarşünaslıq muzeyi yaranmalı idi: Gəncədə iki muzey (diyarşünaslıq və pedaqoji muzeyləri fəaliyyətə başlamalı idi). Faktiki olaraq yalnız diyarşünaslıq muzeyinin yaradılması təsdiqləndi. Yelenendorfda diyarşünaslıq muzeyi. Nuxa, Lənkəran, Naxçıvan, Stepanakert (Xankəndi) muzeyləri üçün büdcə vəsaitləri 1932-ci ildən ayrılmalı idi, lakin mənbələr, muzeyin maliyyələşdirilməsi barədə heç bir faktın olmadığını bir daha təsdiqlədi. Qubada büdcəyə əsasən təşkil ediləcək diyarşünaslıq muzeyi ümumiyyətlə, siyahıdan çıxarılmışdı. Zaqatala, Ağdam, Qazax və Ordubadda muzeylər təşkil edilmədi. Təəssüf ki, fəaliyyət göstərən digər diyarşünaslıq muzeyləri baxımsız idi, onlara lazımınca diqqət yetirilmirdi, bu vəziyyət heç kəsi narahat etmirdi.

## XX ƏSRİN 30-40-CI İLLƏRİNDƏ MUZEYİN FƏALİYYƏTİ

1933-cü ildə Azərbaycan Dövlət Muzeyi haqqında Əsasnamə təsdiq edilmişdir. Sənəddə göstərilirdi ki, Azərbaycan Dövlət Muzeyi ümumdövlət əhəmiyyətli yardımçı elmi müəssisədir. Onun əsas vəzifəsi aşağıdakılardan ibarət idi:

a) Azərbaycanda məhsuldar qüvvələrin inkişafı tarixinə, sinfi mübarizəyə aid materialların öyrənilməsi, nümayiş etdirilməsi;

b) təbiətlə insanların qarşılıqlı münasibəti;

c) Sovet Azərbaycanında sosializm quruculuğu.

***Azərbaycan Dövlət Muzeyi özünün əsas vəzifəsinə müvafiq olaraq aşağıdakı tədbirləri həyata keçirirdi:***

a) Muzeyin proqramına müvafiq eksponatların və onlara aid, Azərbaycan tarixinin bütün dövrlərinə aid eksponatların, əlyazmaların elmi əhəmiyyətini tamamlayan sənədlərin toplanması;

b) eksponatların öyrənilməsi və saxlanılması;

c) yerli millətlərdən muzeyşünas elmi işçi kadrlarının hazırlanması üçün kurs və seminarların təşkil edilməsi.

***Muzey öz funksiyalarını həyata keçirmək üçün aşağıdakı hüquqlardan istifadə edirdi:***

a) muzeyin proqramına cavab verən eksponatların yığılması, SSRİ-nin mərkəzi muzeylərindən müvafiq kolleksiyaların və ayrı-ayrı eksponatların alınması, smeta xərcləri daxilində muzey üçün zəruri əşyaların satın alınması, eləcə də hədiyyə kimi qəbul edilməsi yolu ilə öz kolleksiyalarını genişləndirmək;

b) muzeyin vəzifələrinə müvafiq olmayan dublet və materialları aidiyyatı olan muzey müəssisələri ilə mübadilə etmək;

c) muzey əməkdaşlarının elmi-tədqiqat əsərləri, müxtəlif eksponatların təsvirləri, kataloqları, muzeyin fəaliyyəti ilə əlaqədar bələdçi broşuraları çap etmək;

ç) həm muzeyin özündə, həm də onun hüdudlarından kənarda sərgilər təşkil etmək;

d) muzeyin fəaliyyət dairəsinə daxil olan məsələlərə dair məruzələr, kurslar və elmi konfranslar təşkil etmək;

e) elmi tədqiqat ekskursiyaları və ekspedisiyalar təşkil etmək;

ə) Muzeyin əməkdaşlarını dünyada mövcud olan muzey quruculuğunun nailiyyətləri ilə tanış etmək, təcrübə mübadiləsi məqsədilə SSRİ-yə və digər xarici ölkələrə ezam etmək;

f) ekspozisiya yaratmaq üçün materiallar bazasını yerləşdirmək məqsədi ilə xüsusi muzey anbarları, kitabxana, arxiv, fotoarxiv, dezinfeksiya kamerası, bərpa, mulyaj və yardımçı elmi xarakterli digər müəssisələr yaratmaq;

g) dövlət və ictimai müəssisələrin, habelə ayrı-ayrı şəxslərin təklifi ilə incəsənət əsərlərinin üzərində ekspertiza işlərini aparmaq.

***1934-cü ildə Azərbaycan Dövlət Muzeyi nəzdində Elmi-Metodiki Şura haqqında Əsasnamə təsdiq edilmişdir.***

***Elmi-Metodiki Şuranın vəzifələrinə aşağıdakı məsələlər daxil idi:***

a) XMK-nin muzey quruculuğu üzrə göstərişlərinin həyata keçirilməsi ilə əlaqədar metodiki məsələlərin müzakirəsi;

b) ayrı-ayrı muzeylərin ekspozisiya, elmi-tədqiqat işləri planlarının strukturunun müzakirəsi, təsdiq edilməsi;

c) muzeylərin və ixtisasa görə onlara yaxın olan başqa elmi-tədqiqat müəssisələrinin, elmi-tədqiqat işlərinin əlaqələndirilməsinin forma və metodlarının işlənib hazırlanması;

ç) muzeylərin naşirlik fəaliyyəti planının müzakirə və təsdiq edilməsi;

d) muzey işlərinin tədqiq edilməsi;

e) muzeylərin plan üzrə yeni kolleksiyalarla genişləndirilməsi ilə əlaqədar məsələlərin müzakirə edilməsi.

***Yuxarıda göstərilən vəzifələrə müvafiq olaraq Elmi-Metodiki Şura:***

a) muzeylər tərəfindən onun müzakirəsinə təqdim edilmiş planlar barəsində rəylər verirdi;

b) muzey kadrlarının hazırlanmasına aid tədbirləri və materialları nəzərdən keçirirdi;

c) kütləvi iş xətti üzrə metodik işləmələri nəzərdən keçirir, onlara rəylər verirdi.

***Elmi-metodiki şuranın aşağıdakı üzvləri təsdiq edilmişdi:***

1. M. Salamov – Azərbaycan Dövlət Muzeyinin direktoru;
2. Qəhrəmanov – İnqilab muzeyinin direktoru;
3. A.K. Şərifov – Teatr muzeyinin direktoru;
4. Prof. Yelpatyevski – Azərbaycan Dövlət Muzeyinin elmi məsləhətçisi;
5. Paxomov – Azərbaycan Dövlət Muzeyinin numizmatika şöbəsinin müdiri;
6. Prof. Xuluflu – SSRİ Elmlər Akademiyası Zaqafqaziya filialının Azərbaycan bölməsi Tarix şöbəsinin rəhbəri;
7. Gülnəzərov – Azərbaycan Dövlət Arxivinin elmi katibi;
8. Y. Hacıyev – Məktəblər idarəsinin rəisi və başqaları.

Azərbaycanda Firdovsinin 1000 illik yubileyi ilə əlaqədar 1933-cü il sentyabrın 28-dən başlayaraq bir ay ərzində genişmiqyaslı tədbirlər keçirilmişdir. Bu tədbirlər çərçivəsində aşağıdakı işlər nəzərdə tutulurdu:

- “Azərnəşr” nəşriyyatında türk dilində “Şahnamə” yubiley məcmuəsinin nəşri;
- Firdovsinin həyatı, yaradıcılığı və dövrünü əks etdirən sərginin təşkili.

Ruhulla Axundovun ümumi redaktəsi ilə nəşr edilmiş məcmuəyə “Şahnamə” əsərindən ayrı-ayrı parçalar daxil idi: “Dünyanın və insanın yaranması”, “Zöhhak və Gavə”, “Rüstəm və Zöhrab”, “Siyavuş”, “Rüstəm və İsfəndiyar”, “Qubad və Məzdək”, “Sultan Mahmudun vəsfi”.

Məcmuənin tərcümə və redaktə işləri SSRİ Elmlər Akademiyası Zaqafqaziya filialının Azərbaycan bölməsi Tarix şöbəsinin Azərbaycan bölməsinin ədəbiyyat sektorunda həyata keçirilirdi. Bu işə respublikanın yüksək səviyyəli tərcüməçiləri, tarixçiləri, tənqidçi

və yazıçıları – Xuluflu, Əli Nazim, Abdulla İbrahimov, Şaiq, Abbas Əli, Müşfiq, Seyidzadə, İbrahim Tahir cəlb edilmişdi.

Yubiley sərgisi dörd əsas bölmədən ibarət idi:

- Firdovsi və onun dövrü;
- "Şahnamə" qəhrəmanları və onların dövrü;
- Firdovsinin təsiri;
- Firdovsi və müasir dövr.

Sərginin təşkil olunmasında Azərbaycan Dövlət Muzeyi fəal iştirak edirdi. Sərgidə İran materialları ilə yanaşı Gəncədən, Qəbələdən, habelə akademik İ.İ. Meşşaninovun rəhbərliyi ilə Örənqalada aparılmış qazıntılar zamanı aşkar edilmiş materiallar nümayiş etdirilirdi. Burada tapılmış bəzi qab fraqmentləri onların üzərindəki rəsmlərin keyfiyyəti, bəzəyi öz unikallığı ilə seçilirdi. Bütün bu arxeoloji materiallar Azərbaycan şəhərlərinin, Firdovsinin yaşadığı dövrə aid abidələrin yenidən qurulmasını təsvir edən rəsmlərlə tamamlanırdı. Firdovsinin həyat və yaradıcılığına həsr edilmiş bölmədə rəngkarlıq, akvarel tablolar, heykəltaraşlıq nümunələri, o cümlədən Xalıqovun "Firdovsinin dəfni" (yağlı boya), R. Mustafayevin "Firdovsinin portreti" (yağlı boya), Əzimzadənin "Firdovsi Mazandaran şahının hüzurunda" (akvarel) və bəzi başqa rəsm əsərləri xüsusi seçilirdi. Firdovsi dövrünü özündə təcəssüm edən muzey eksponatları arasında Rey keramikasının zəngin kolleksiyası, Ərəb Xilafəti dövründə Cənubi azərbaycan və Şimali Azərbaycanın qızıl, gümüş, mis sikkələrindən ibarət qiymətli kolleksiya diqqəti cəlb edirdi. Çap nümunələrində Bakıxanovun "Gülüstani-İrəm", habelə "Kəlilə və Dimnə", "Divani-Ünsüri" kitabları və bir sıra miniatürlər nümayiş etdirilirdi.

Sərginin ekspozisiyasının iki bölməsi yalnız "Şahnamə" qəhrəmanlarına, onların dövrünə həsr edilmişdi. Burada "Şahnamə" əsərinin məzmunu ilə yanaşı qədim İranın (farsların) maddi mədəniyyət nümunələri nümayiş etdirilirdi. Firdovsi tətbiq etdiyi süjetləri məhz bu mənbədən götürmüşdü. Burada Əhəmənilər, Sasanilər dövrünə aid barelyeflər, eləcə də Sasani sikkələrinin,

gümüş boşqabların fotoşəkilləri kolleksiyası təqdim olunmuşdu. Sərgi Firdovsinin yaradıcılığı ilə yanaşı, bu möhtəşəm şairin sonrakı dövrlərdə İran (fars), Azərbaycan ədəbiyyatına təsirini nümayiş etdirən fraqmentlərlə tamamlanırdı. Sərginin bu hissəsində Nizami Gəncəvi yaradıcılığına xüsusi yer ayrılmışdı.

Sərgidə Nizaminin portreti, onun bir sıra əsərlərinin əlyazmaları, illüstrasiyalar nümayiş etdirilirdi. Bərdə şahzadəsi Nüşabəni təsvir edən miniatür xüsusi maraqla qarşılanmışdı. Hal-hazırda həmin miniatür muzeydə qeydə alınmayıb. Burada digər Azərbaycan şairlərinin – Xaqani, Məhsəti xanım və başqalarının portretləri nümayiş etdirilirdi. Sərginin bu hissəsində ən qiymətli eksponat Nizami Gəncəvi ilə Məhsəti xanımın məzarlarından götürülmüş, XII – XIII əsrlərə aid iki naxışlı parça idi.

Azərbaycan Dövlət Muzeyində Şərqin tanınmış məşhur xəttat-rəssamları Mir İmadi və Əli Məşədi tərəfindən "talıq" xətti ilə yazılmış iki nadir əlyazma saxlanılırdı. Xəttatın əməyi çox vaxt rəssamın əməyindən daha yüksək qiymətləndirilirdi, çünki əlyazmaların yazılmasına illərlə vaxt sərf edilir, onlar çox qiymətli mədəni irs sayılırdı. "Şahnamə" əsərinin türk dilinə tərcümələri, Azərbaycan şairlərinin Firdovsiyə həsr edilmiş şeirləri sərginin ayrıca bölməsində nümayiş etdirilirdi. Sərginin bu hissəsi Firdovsi haqqında Avropa və Şərq dillərində əsas biblioqrafiya siyahıları ilə tamamlanırdı.

Firdovsi üslubu bədii ədəbiyyata təsir etməklə yanaşı, həm də parça naxışları, binaların divar rəsmləri üçün zəngin süjet mənbəyi sayılırdı. Azərbaycan rəssamları "Şahnamə" motivləri əsasında bir sıra rəsm əsərləri təqdim etmişdi: "Məzdəkin üsyanı" – Quritski (yağlı boya); "Rüstəmin Əfrasiyabla döyüşü" – Salamzadə (yağlı boya); Həsən Mustafayevin yüksək səviyyədə çəkdiyi "Rüstəmin ağ divlə döyüşü" qravürü; Art və Şarovun bədii üslubda işlənmiş əl işi olan Sasani torpaqlarının xəritəsi və s.

Sərgidə "Şahnamə" əsərinin Azərbaycan dramaturgiyasına təsirini əks etdirən 15-ə yaxın pyes, habelə "Gavə", "Siyavuş", "Od gəlini" pyesləri əsasında hazırlanmış tamaşaların maketləri, bu

pyeslərin ayrı-ayrı qəhrəmanlarının fotoşəkilləri (Teatr muzeyinin materialları) nümayiş etdirilirdi. Sərginin bu bölməsi Leninqrad Ermitaj Muzeyinin Firdovsiyə həsr edilmiş sərgisindən çəkilmiş fotoşəkillərlə tamamlanırdı. Sərginin maraqlı cəhəti ondan ibarət idi ki, burada Sasanilər dövrünə aid nadir əlyazmalar, miniatürlər və gümüş qablar nümayiş etdirilirdi.



***Firdovsinin "Şahnamə" əsərindən parça üzərində təsvir olunmuş miniatür.***

Sərgidə elmi müəssisələr və vətəndaşlar tərəfindən müvəqqəti istifadə üçün təqdim edilmiş 800-ə yaxın eksponat, bir sıra qiymətli əlyazmalar nümayiş edilirdi. Firdovsinin 1000 illik yubileyinə həsr edilmiş sərginin təşkil edilməsi üçün göstərdiyi əməyinə görə Salman Mümtazın (EAZFA bölməsi) adı xüsusi qeyd edilməlidir. O, Firdovsi dövrünün ədəbiyyatı və elminə aid 10 dəyərli əlyazma nüsxəsini hökumət komissiyasına hədiyyə etmişdi.

.1933-cü il sentyabrın 28-də Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin sədri Əfəndiyev, Xalq Maarif Komissarı Ağayev, Xalq Xarici İşlər Komissarlığının müvəkkili İlyinski, Az. SSR yazıçılar İttifaqının sədri Ələkbərli, akademiklər Levinson-Lessinq, İ. Meşşaninov, İran hökumətinin nümayəndəsi, tarixçi və ədəbiyyatçı Səid Nəfisi, dövlət, ictimai, elmi təşkilatlarının və mətbuatın çoxsaylı nümayəndələrinin iştirakı ilə Firdovsiyə həsr edilmiş yubiley sərgisinin təntənəli açılış mərasimi oldu. Sərgiyə gələnlər arasında tanınmış sovet alimləri, yazıçıları: Bolotnikov, Orbeli, Fretman, Bertels, Romaşeviç, Marr, Bonç-Bruyeviç və başqaları vardı. Sərginin nümayiş olunduğu 1 ay ərzində 1933-cü il sentyabr 28-dən oktyabrın 28-ə kimi muzeyə 5 816 nəfər tamaşaçı gəlmişdi.



***Firdovsi sərgisinə gələnlərin sərgi haqqında rəyləri. 12.X.1933***

1934-cü ildə N.Nərimanovun vəfatının 10-cu il dönümü ilə əlaqədar əhalinin geniş təbəqələrini onun həyatı, ictimai-siyasi və ədəbi fəaliyyəti ilə tanış etmək məqsədi ilə Azərbaycan Dövlət Muzeyi sərgi təşkil etmişdi. Muzey ictimai təşkilatlara, habelə ayrı-ayrı ədəbiyyat xadimlərinə müraciətlə N.Nərimanov haqqında materialların, xatirələrin muzeyə təqdim edilməsi üçün köməklik göstərilməsini xahiş etmişdi.

Azərbaycanda türk teatrının tarixi və inkişafı, xüsusən son 10 ildə bu sahədə əldə edilmiş nailiyyətlərlə ictimaiyyəti tanış etmək məqsədi ilə Azərbaycan Dövlət Muzeyi SSRİ milli teatrlarının Moskvada keçiriləcək Teatr Olimpiadasında Azərbaycanda Türk Teatrının Nailiyyətləri Sərgisinin təşkil edilməsi təşəbbüsü ilə çıxış etdi. Azərbaycanın sovetləşməsinin 10 illiyi münasibəti ilə muzey Azərbaycan türk teatrının tarixinə aid materiallardan ibarət kitab nəşr etmişdir. Muzeyin ədəbiyyat və teatr şöbəsində toplanmış materiallar əsasında yazılmış bu kitaba bir sıra reproduksiyalar, tarixi sənədlərin illüstrasiyaları, ayrı-ayrı teatr xadimlərinin fotoşəkilləri daxil edilmişdir.

1934-cü ildə təşkil edilmiş zəngin, maraqlı sərgilərdən biri olan ***XVIII-XIX əsrlərə aid çini məmulatlar sərgisi aşağıdakı bölmələrdən ibarət idi:***

1. Çin və Yapon çinisi;
2. Hollandiya saxsı məmulatları (Delft, XVII əsr);
3. Meysen manufakturasının (Saks) alman çinisi, habelə Berlin imperator zavodunun məhsulları;
4. Sevr manufakturasının və başqa zavodların Fransa çini məhsulları;
5. Danimarka, Vyana və İngiltərə çini məmulatları;
6. II Yekaterina, II Aleksandr dövründə İmperator çini zavodunun, Qardner, Popov və başqalarının şəxsi zavodlarının Rusiya mədəniyyətinə aid çini məmulatlar;
7. Sovet çinisi (əsasən rəssam Dankonun işləri).

***Azərbaycan SSR XKS-nin 1937-ci il 9 may tarixli 2865 №-li qərarı ilə yaradılmış komissiyanın təklifi əsasında Azərbaycan SSR XKS 1937-ci il 28 iyun tarixli 3911 №-li qərar qəbul edilmişdir. Həmin qərara əsasən:***

I. Malıgin küçəsi 4 № -li binada Azərbaycan SSR Muzeylər Evi yaradılır.

II. Həmin binada aşağıdakı muzeylər yerləşirdi:

- EAAzF-nin Azərbaycan Xalqlarının Tarixi Muzeyi.
- Az.SSR Xalq Torpaq Komissarlığının V.İ.Lenin adına Azərbaycan Kənd təsərrüfatı Muzeyi.
- Az.SSR XKS yanında İncəsənət İşləri İdarəsinin Dövlət İncəsənət Muzeyi.
- EAAzF-nin Təbiət-Tarix Muzeyi.
- Az.SSR XKS yanında İncəsənət İşləri İdarəsi yanında Teatr Muzeyi.

III. Otaqların muzeylər arasında aşağıdakı bölgüsü təsdiq edilmişdi: 1) Azərbaycan Xalqlarının Tarixi Muzeyi: İkinci mərtəbədə 1-13 №-li otaqlar, birinci mərtəbədə 1-6 və 28-34 №-li otaqlar, ümumi sahəsi 1 416 kv. metr; 2) Az.SSR Xalq Torpaq Komissarlığının V.İ. Lenin adına Azərbaycan Kənd təsərrüfatı Muzeyi: ikinci mərtəbədə 14-33 № -li, birinci mərtəbədə 21-27 №-li otaqlar, ümumi sahəsi 763 kv.metr; 3) Az.SSR XKS yanında İncəsənət İşləri İdarəsinin Dövlət İncəsənət Muzeyi: ikinci mərtəbədə 34-40 № -li, birinci mərtəbədə 35-40 №-li otaqlar, ümumi sahəsi 695 kv.metr; 4) EAAzF-nin Təbiət-Tarix Muzeyi – üçüncü mərtəbədəki 29 otağın hamısı, ümumi sahəsi 581 kv.metr; 5) Az.SSR XKS yanında İncəsənət İşləri İdarəsi yanında Teatr Muzeyi – birinci mərtəbədəki iki qapının arasındakı otaqlar.




IV. Bakı Sovetinə (Olin) tapşırıldı ki, 1937-ci il dekabrın 1-dək Muzeylər Evində sakinlərin tutduğu bütün otaqlar boşaldılsın.

V. Azərbaycan Mərkəzi dövlət Arxivinə (Gülnəzərov) və Bakı sovetinə (Olin) tapşırıldı ki, 1 Yanvar 1938-ci ildən gec olmayaraq arxivin tutduğu bütün otaqlar boşaldılsın, həmin otaqlar muzeylərə təhvil verilsin.

VI. EAAzF-yə (Vəlibəyov), İncəsənət İşləri İdarəsinə (Rəsulzadə), Xalq Maarif Komissarlığına (Əfəndiyev) tapşırıldı ki, 1937-ci il sentyabr 1-dək onların təşkilatlarının (Bədii kombinat, EAAzF-nin Tikinti Kontoru, Kukla Teatrı, Xalq Təhsili Muzeyi) Muzeylər Evində tutduğu bütün otaqları təhvil verilsin.

VII. Muzeylər Evinin idarə edilməsi EAAzF-yə həvalə edildi.

VIII. EAAzF-yə (Vəlibəyov) tapşırıldı ki, 10 gün müddətində Muzeylər Evinə texniki baxış keçirilməsi üçün komissiya təyin edilsin, evin texniki vəziyyətinə dair akt tərtib edilsin, binanın tam təmir edilməsi üçün zəruri vəsaitin həcmi müəyyən edilsin.

IX. Muzey direktorlarına dərhal yeni ekspozisiyaların yaradılması təklif edildi.

X. EAAzF (Vəlibəyov) 10 gün müddətində Azərbaycan Xalqlarının Tarixi Muzeyinin profilini əsaslandıraraq sənədləri təsdiq olunmaq üçün Az.SSR XKS-yə təqdim etməli idi.

XI. EAAzF-yə (Vəlibəyov) və Azərbaycan Xalqlarının Tarixi Muzeyinə (İzmailov) tapşırıldı ki, 1937-ci il noyabrın 1-dən gec olmayaraq "Sosializm quruculuğu şöbəsi"nin açılması, Oktyabr inqilabının 20-ci ildönümü münasibəti ilə Az.SSR-in son 20 il ərzində qazandığı nailiyyətləri nümayiş etdirmək üçün sərginin mövcud eksponatlarından istifadə etməklə Sosializm quruculuğu şöbəsinin eksponatlarını yeniləndirsin.

Bütün Xalq Komissarlarına, Bakı Sovetinin sədrinə, digər idarə və təşkilatların rəhbərlərinə tapşırıldı ki, 1937-ci il noyabrın 1-dək Muzeyin açılışını təmin etmək məqsədilə eksponatlarının yeniləndirilməsində EAAzF-yə kömək etsinlər.

Az.SSR Xalq Torpaq Komissarlığının V.İ.Lenin adına Azərbaycan Kənd təsərrüfatı Muzeyinin direktoruna (Əliyev) tapşırıldı ki, həmin müddətdə "Kənd təsərrüfatının sosialistcəsinə yenidən qurulması şöbəsi" yaradılsın, sərginin kənd təsərrüfatı şöbəsinin eksponatlarından istifadə edilməklə Az.SSR-in kənd təsərrüfatı sahəsində nailiyyətləri nümayiş etdirilsin.

XII. EAAzF-yə (Vəlibəyov) tapşırıldı ki, sərginin yenidən qurulması planını, yenidənqurma ilə əlaqədar zəruri xərclər üçün vəsaitlərin məbləğini təsdiq etməkdən ötrü Az.SSR XKS-yə təqdim etsin.

XIII. Az.SSR Dövlət Plan Komitəsinə tapşırıldı ki, üçüncü beşillik plana muzeylər üçün xüsusi bina tikilməsi proyekti daxil edilsin.

XIV. Aidiyyəti təşkilatların nümayəndələrindən ibarət xüsusi komissiyaya tapşırıldı ki, Xalq Komissarları Evində Az.SSR Xalq Səhiyyə komissarlığının tədris müəssisələrinin və Xalçaçılıq Artelinin yerləşdiyi otaqlarda Azərbaycan Mərkəzi Dövlət Arxivinin yerləşdirilməsi məqsədi ilə həmin otaqların boşaldılması məsələsinə baxsın, həmçinin, Xalq Komissarları evinin hansı təşkilata verilməsini müəyyənləşdirsin.

XX əsrin 30-cu illərində Azərbaycan Dövlət Muzeyinin mövcud bazasına istinad edilərək yeni muzey quruculuğu dövrü başlandı. C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyi və Azərbaycan Dövlət İncəsənət Muzeyi Azərbaycan Dövlət Muzeyindən ayrıldı. Muzeydə qalan eksponatların əksəriyyəti bilavasitə Azərbaycan tarixi və onun məhsuldar qüvvələri tematikasına aid idi.

Azərbaycan Dövlət Muzeyi 1935-ci ildə yaradıldığı vaxtdan Xalq Maarif Komissarlığının tabeliyində olmuşdu. 1936-cı ildə Muzey EAAzF-nin tabeliyinə verildikdən sonra yenidən təşkil olundu. 1937-ci ildə təbiət-tarix şöbəsi muzeydən ayrıldı, EAAzF-nin Təbiət-Tarix Muzeyi kimi fəaliyyətini davam etdirdi, elmi baxımdan EAAzF-nin müvafiq institutları ilə müştərək iş birliyi yaratdı. Elə həmin andan Muzeyin çox zəngin ədəbi əlyazmalar şöbəsi Nizami Gəncəvi adına Ədəbiyyat və Dil İnstitutuna verildi.

Azərbaycan Dövlət Muzeyinin əsas tərkib hissəsi Azərbaycan Tarix Muzeyi kimi fəaliyyət göstərməyə başladı. Bu muzey elmi iş profilinə görə Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutu ilə əməkdaşlıq edirdi. Sonralar ölkəmizin tarixinin öyrənilməsi ilə

əlaqədar ən mühüm tədbirlər muzeylə institutun birgə fəaliyyəti ilə həyata keçirilmişdir.



***Azərbaycan Dövlət Muzeyinin elmi kollektivi Şirvanşahlar Sarayında: 1-ci sıra, sağdan: Y. Paxomov (1), 2-ci sıra, sağdan: P. Fridolin (2), A. Bukşpan (3), Q. Qubaydullun (4), İ. Meşşaninov (5), İ. Şeblıkin (7), S. Aşurbəyli (8), 3-cü sıra, sağdan: Ə. Ələkbərov (3).***

Beləliklə, Tarix Muzeyinin profili məhz onun EAAzF-nin tabeliyinə keçdiyi zaman müəyyənləşdirildi. XV əsr Azərbaycan memarlığının görkəmli abidəsi keçmiş Şirvanşahlar Sarayının binası 1936-cı ildən Muzeyə verilmişdi. 1937-ci ildən bu binanın beş zalında sərgilər təşkil edilmişdi.



***Şirvanşahlar sarayı XV əsrin əlamətdar memarlıq abidəsidir. 1936-cı ildə burada Azərbaycan Dövlət Muzeyi yerləşirdi.***

***Azərbaycan tarixinə dair materiallar sərgisi o dövrdə biliklərin səviyyəsini əks etdirməklə aşağıdakı bölmələrdən ibarət idi:***

1) ***Arxeologiya bölməsi*** – Xocalı-Gədəbəy, Qızıl Vəng, Yaloylutəpə mədəniyyətləri, küp qəbirləri və orta əsr Azərbaycan şəhər ərazilərinin materialları.

2) ***Tarix bölməsi*** – əsasən XVIII- XIX əsrlər tarixinə aid sənədlər; Azərbaycan, Dağıstan silahları və muzeyin numizmatika kolleksiyası. Bu kolleksiya hələ o dövrdə numizmatika fondunun müdiri Y.A. Paxomovun əzmkarlığı və bilikləri sayəsində İttifaqda Şərq numizmatikası üzrə ən səviyyəli, zəngin kolleksiyalardan biri idi.

3) ***Etnoqrafiya bölməsi*** – burada azərbaycanlıların məişət əşyaları, habelə Azərbaycan tikmələrindən (ipək, güləbətin, muncuq) kolleksiyaları, Lahıc ustalarının əl işləri olan mis qablar kifayət qədər geniş təmsil olunmuşdu.

4) ***Şirvanşahlar Sarayının*** tarixinə, orada aparılmış təmir-bərpa işlərinə həsr edilmiş bölmə. Sarayın tarixinə aid materiallarda Bakı şəhərinin XVII əsrdən sonrakı tarixi əks etdirilir, habelə Sarayın arxeoloji və memarlıq baxımından öyrənilməsinə aid toplanmış materiallar nümayiş etdirilirdi.

Bu sərgiyə, eləcə də Şirvanşahlar Saray kompleksinə aid abidələrə: Divanxana, Məqbərə, Şirvanşah məscidi, Şirvanşahlar Sarayında yaşamış məşhur Azərbaycan alimi Seyid Yəhya Bakuvinin məqbərəsinə tamaşa etmək üçün saysız-hesabsız müsafirlər muzeyə axışırdı. 1937-ci ilin axırlarında, sərgi açılan zaman, eləcə də 1938-ci ildə, 1939-cu ilin birinci yarısında Muzeyə 100.000-dən çox tamaşaçı auditoriyası gəlmişdir.



***XX əsrin 30-cu illərində Azərbaycan Dövlət Muzeyinə gələnlərin rəyləri***

Qonaqların Azərbaycan memarlığının ən gözəl abidələrindən biri olan bu saraya marağını təmin etmək məqsədi ilə 1939-cu ildə İ. P. Şeblıkinin "Şirvanşahlar Sarayının tarixi oçerki" adlı kitabı nəşr edilmişdi.

1936-cı ildən muzeyin ekspozisiyasında Azərbaycan Xanlıqlarının siyasi tarixi, daxili quruluşu, eləcə də xanlıqların Rusiya təəbəliyini qəbul etməsinin (faktiki olaraq işğal edilməsinin) tarixi işıqlandırılmışdır. Ekspozisiyaya bir sıra qiymətli eksponatların həqiqi nüsxələri daxil edilmişdi: 1756–1789-cu illərdə Azərbaycan Xanlıqlarını vahid dövlət şəklində birləşdirməyə çalışmış, bu işdə sanballı uğurlar qazanmış Azərbaycanın görkəmli dövlət xadimi Qubalı Fətəli xanın məzarı

üstündəki mərmər daş; Gəncə, Bakı qalalarının açarları; XVIII-XIX əsrlərə aid Azərbaycan, Dağıstan silahları; 1804-cü ilin yanvar ayında Gəncə qalasının müdafiəsi zamanı qəhrəmancasına həlak olmuş Gəncəli Cavad xanın bonçuğu; F. Rubonun "1826-cı ildə İran ordusunun Yelizavetpol ətrafında məğlubiyyəti" adlı əsərinin əsli; 1827-28-ci illərdə rus qoşunları tərəfindən tutulmuş Ərdəbil, Təbriz qalalarının şəhər darvazalarının açarları, bir sıra başqa materiallar daxil edilmişdi.

***1938-ci il ərzində Muzeyin fondlarındakı eksponatların sayının artması aşağıdakı rəqəmlərlə ifadə olunur:***

| **Fondların adı** | **Rəqəmlər yanvarın 1-də geydə alınmışdır** | |
|---|---|---|
| | 1938-ci il | 1939-cu il |
| Arxeologiya fondu | 1496 | 1676 |
| Epiqrafiya fondu | 12 | 74 |
| Numizmatika fondu | 14321 | 16728 |
| Etnoqrafiya fondu | 2361 | 2725 |
| Tarix fondu | 700 | 1238 |
| Ədəbiyyat və əlyazmalar fondu | 3119 | 5817 |
| Az.SSR-də sosializm quruculuğu şöbəsi | 2240 | 2312 |
| **Cəmi:** | **24249** | **30570** |

Beləliklə, təkcə 1938-ci ildə Muzeyin bütün fondlarına 6 321 eksponat daxil edilmişdi. Numizmatika fonduna daxil olan eksponatlar arasında Sasanilər sülaləsinin (b.e. VI-VII əsrlər) gümüş sikkə xəzinəsi xüsusilə diqqəti cəlb edirdi. Bu xəzinə Altıağac kəndində kolxozçular tərəfindən aşkar edilmişdi. 1938-ci ildə təşkil edilmiş epiqrafiya fondunun yeni eksponatları arasında üzərində div və öküz başı təsvir edilmiş yazının bir hissəsi olan 42 qəbir daşı tamaşaçıların tükənməz marağına səbəb olmuşdu. Bu yazının həkk edildiyi daşlar dənizin sularında aşkarlanıb, "Bayıl daşları" tikilisinə aid edilmişdir. Daşların üzərindəki yazılar XIII-XIV əsrlərə aiddir. İl

ərzində etnoqrafiya fonduna bir sıra qiymətli eksponatlar: kəlağayı naxışlamaq üçün Gəncə möhürləri, Azərbaycanın müxtəlif rayonlarından toplanmış yüksək bədii dəyərə malik tikmələr, qədim parça nümunələri daxil olmuşdur.

Ədəbi əlyazmalar fondu M.F. Axundovun həyat və fəaliyyətinə aid çoxsaylı sənədlər, şəxsi kitabxanası, həmçinin ailəsinə məxsus ev əşyaları almışdır. Muzeyin elmi kitabxanasında Azərbaycan, Zaqafqaziya, Rusiya və Yaxın Şərq ölkələrinin tarixinə, coğrafiyasına, etnoqrafiyasına, numizmatikasına, arxeologiyasına və ədəbiyyatına aid kitablar, jurnallar, albomlar vardı. 1938-ci ildə alınmış eksponatlar arasında xüsusən Le-Bryuinin səyahətini təsvir edən kitab mühüm dəyərə malik nadir kitablar sırasına daxil edilmişdi. 1718-ci ildə Amsterdamda nəşr edilmiş bu kitabda çoxsaylı qravürlər mövcuddur. 1939-cu il yanvarın 1-i üçün kitabxanada 11 022 saxlama vahidi mühafizə edilirdi. İl ərzində 2 184 yeni saxlama vahidi daxil olmuşdu.

***1938-ci ildə Muzey iki sərgi təşkil etmişdir:***

1. Böyük Oktyabr Sosialist İnqilabının 20-ci ildönümü münasibətilə Azərbaycanda sosializm quruculuğu nailiyyətləri sərgisi;

2. Azərbaycan tarixinə aid materialların ikinci sərgisi.

Birinci sərgidə sovet hakimiyyətində təhsil, elm və incəsənət sahəsində əldə edilmiş nailiyyətlər nümayiş etdirilməli idi. Bu sərgi aşağıdakı bölmələrdən təşkil edilmişdi:

1) giriş bölməsi – çar hakimiyyəti dövrü, Bakı kommunası, Müsavat, məktəb quruculuğu, pedaqoji kadrlar, yeni əlifba ilə ərəb əlifbasının müqayisəsi, Azərbaycan xalq təhsil sistemi.

2) məktəbəqədər tərbiyə.

3) ibtidai, natamam orta, orta məktəb.

4) uşaq aqronom-bioloji stansiyası və uşaq-texniki stansiyaları.

5) mədəni-maarifçilik işi.

6) Azərbaycan qadını keçmişdə və indi.

7) milli naşirlik.

8) mətbuat.
9) incəsənət.
10) musiqi, rəssamlıq və teatr təhsili.
11) elm.
12) bədən tərbiyəsi.

Ekspozisiyanın planına aşağıdakı mövzu və yarımmövzular daxil idi:

- Çar hakimiyyəti dövrü – yarımmövzular:

1) savadlılıq faizi;
2) məktəblərin və məktəblilərin sayı;
3) məktəblər;
4) rus-tatar məktəbi;
5) məktəblərdə təlim edilən dərsliklər;
6) çar hökumətinin xalq təhsili sahəsində qanun müddəaları və sirkulyar sərəncamları.

- Bakı kommunası – yarımmövzu "Bakı kommunasının xalq təhsilinə aid dekretləri və sərəncamları".
- Müsavat – yarımmövzular: 1) məktəblərin və məktəblilərin sayı; 2) maarif cəbhəsində vəziyyətin tamamilə bərbad olmasını səciyyələndirən qərarlar, sərəncamlar, yerlərdən daxil olmuş məlumatlar.
- SSRİ-də mədəni quruculuq – yarımmövzular:

1) partiya və hökumətin mədəni quruculuğa aid qərarları;
2) büdcə;
3) məktəb quruculuğu;
4) əhalinin savadlılığı;
5) pedaqoji kadrlar: a) pedaqoji məktəblərin işi; b) pedaqoji institutda tələblərin sayının artması; c) ADU tələbələrinin sayının artması; ç) pedaqoji ali məktəblərdə, pedaqoji məktəblərdə proqramlar, dərsliklər, tədris planları; d) müəllimlərin sayının artması, onların təhsil senzi; e) xalq təsərrüfatı kadrları; ə) Azərbaycanda xalq təhsil sistemi.

- Yeni əlifba – yarımmövzu "Yeni əlifbanın ərəb əlifbası ilə müqayisəsi".

- Məktəb tərbiyəsi – yarımmövzular:
  1) məktəbəqədər müəssisələrin sayının artması;
  2) uşaq bağçalarında uşaqların sayının artması;
  3) uşaq bağçasında canlı guşə;
  4) uşaqların işləri və didaktik material.

- Məktəbdə təhsilin keyfiyyəti uğrunda mübarizə – yarımmövzular:
  1) Az.SSR-də məskunlaşmış 16 milli mənsubiyyətə daxil olmuş xalqların ana dilində savadlanması;
  2) ədəbiyyat, riyaziyyat, fizika, kimya, coğrafiya və başqa fənlərin tədrisi.

- Azərbaycan qadını – yarımmövzu "Türk qadınının vəziyyəti keçmişdə və indi".
- Kitab nəşri – yarımmövzu "Kitabların sayının artması".
- Mətbuat – yarımmövzu "Azərbaycan SSR-də dövri mətbuat".
- İncəsənət – yarımmövzu "Teatr, təsviri incəsənət, musiqi, Azərbaycan yazıçıları".
- Musiqi təhsili – yarımmövzular: 1) "Rəssamlıq və teatr təhsili"; 2) "Musiqi məktəbləri, Konservatoriya, rəssamlıq məktəbi, teatr məktəbi".
- Elm.

Burada elmi tədqiqat müəssisələrinin fəaliyyəti haqqında eksponatlar nümayiş etdirilirdi:

***Tarix fənləri:*** Azərbaycanın etnoqrafik və arxeoloji baxımdan tədqiq edilməsi və öyrənilməsi xəritəsi, maddi mədəniyyət və etnoqrafiya abidələrinə aid rəsmlər və fotolar, yeni türk əlifbasının inkişafını və yayılmasını əks etdirən cədvəl, Azərbaycan ədəbiyyatı klassiklərinin əsərlərinin nəşri.

***Təbii-tarix fənləri üzrə:***

Geologiya üzrə – Azərbaycan SSR-də geoloji tədqiqat işlərinin xəritəsi və faydalı qazıntı nümunələri;

Torpaqşünaslıq üzrə – Azərbaycan SSR-in torpaq xəritəsi;

Botanika üzrə – Azərbaycanın botanika xəritəsi və subtropiklər xəritəsi;

Zoologiya üzrə – Azərbaycan SSR-in zooloji xəritəsi, kənd təsərrüfatı ziyanvericilərinin yayılması xəritəsi;

Geofizika üzrə – Azərbaycan SSR-də seysmik mənbələr;

Tətbiqi kimya üzrə – alunitlərdən zəy alınması üsulu, təbii qazın dərin emalı və s.;

Energetika üzrə – energetik sərvətlər xəritəsi, o cümlədən hidroenergiya və s.

Azərbaycan tarixinə aid materialların ikinci sərgisi aşağıdakı bölmələrdən ibarət idi:

1) Xan sarayında bərpa işləri, onun tarixi;

2) Azərbaycanın və onunla həmhüdud ölkələrin qədim silahları, muzeyin sikkə kolleksiyası;

3) Azərbaycanın arxeoloji mədəniyyətləri, sərgidə nümayiş etdirilən mədəniyyətlərin məzmununu, onların yayılma ərazisini izah edən xəritə və fotoşəkillər;

4) Azərbaycan etnoqrafiyası (XIX əsr). Azərbaycanın bir sıra rayonlarında toplanmış mis qablar, libaslar, tikmələrdə əks olunan xalq yaradıcılığı.

1938-ci ildə təşkil edilmiş hər iki sərgiyə gələnlərin sayı çox idi. İl ərzində muzeyin sərgilərinə 50147 nəfər tamaşa etmişdi. Bu, 1937-ci ildəkinə nisbətən 16421 nəfər çox idi.

***Azərbaycanda feodalizm tarixi şöbəsinin*** materialları əsasında rəssam Haqverdiyev tərəfindən "XVIII əsrdə Azərbaycanda Həsən məhkəməsi" mövzusunda tablo çəkilmişdir. Bu əsərin süjeti Nuxa şəhərində Məhəmmədhəsən xanın məhkəməsi haqqında xalq rəvayəti əsasında qurulmuşdur. Şöbənin materialları əsasında onun əməkdaşlarının rəhbərliyi ilə rəssam Q.B. Piralov "1723-cü ildə I

Pyotr qoşunları tərəfindən Bakının mühasirəyə alınması” mövzusunda yağlı boya ilə rəsm əsəri çəkmişdir. 1938-ci ildə rəssam L.F. Knit “1743-cü ildə Nadir şahın ordusunun Dağıstandan və Azərbaycanın şimal hissəsindən geri çəkilməsi” rəsmi üzərində işi tamamlamışdır. Bu əsərin süjeti yadelli işğalçı və müstəbidin parçalanmaqda, tamamilə mənəviyyatsızlaşmaqda olan ordu tərəfindən insanları, ölüləri, qarət edərək geri çəkilməyə məcbur olduğu bir dövrdə Dağıstan və Azərbaycan xalqlarının öz müstəqilliyi uğrunda mübarizəsinə həsr edilmişdir. L.F.Knit “XVIII əsrdə Şamaxıda meydan” tarixi mövzuda bir rəsm əsəri çəkmişdi.

Bu şöbədə XVIII əsrdə Azərbaycanda istehsal və məişət səhnələrini təsvir edən bir sıra maketlər yaradılmışdır: “XVIII əsr Lahıc misgərlərinin emalatxanası”, “XVIII əsr Gəncə çəkməçisi”, “Maştağada qədim hamam”, həmçinin Azərbaycanda orta əsr memarlıq tikililərinin maket-modelləri: “XVI əsrdə Qarğabazar yolunun kənarında karvansara”, “Abşeronda gil ovdan”, “Abşeronda yağış ovdanı” və “XVIII əsrdə Azərbaycanda oturaq kəndlilərin istismarını əks etdirən maketlər: “XVIII əsrdə Bərdə yaxınlığında xışla şum”, “XVIII əsrdə Şirvanda xırman” adlı böyük diorama və s.

1938-1940-cı illərdə Muzey EAAzF-nın Tarix İnstitutu ilə birlikdə qədim Gəncə ərazisində iri həcmli arxeoloji qazıntılar aparmışdır. Bu işlər nəticəsində dahi Azərbaycan şairi Nizaminin doğulduğu və yaşadığı şəhərin orta əsrlər tarixinin, mədəniyyətinin öyrənilməsi nəzərdə tutulurdu. Arxeoloji qazıntılar zamanı XII əsrə, XIII əsrin əvvəlinə aid keramika emalatxanalarının qalıqları aşkar edilmişdir. Qazıntılar prosesində XII-XIII əsrlərə aid olan çoxsaylı keramika, inşaat, üzlük materialları, əmək alətləri tapılmışdır. Aşkar edilmiş materiallar arasında daha qiymətlisi 1941-ci ildə Azərbaycanın dahi şairi, mütəfəkkiri Nizami Gəncəvinin yubileyinə həsr edilmiş nümayiş məqsədilə Nizami Gəncəvi adına muzeyə verilmək üçün seçilmişdir. Qazıntılarda muzey tərəfindən: tarix elmləri namizədi S.M. Qazıyev, elmi katib V.N.Leviatov, feodalizm tarixi şöbəsinin müdiri, sonradan, 1941-ci ildə Smolensk ətrafında

döyüşlərdə qəhrəmancasına həlak olmuş V.A. Qraçov, böyük elmi işçi İ.M. Cəfərzadə, kiçik elmi işçi Q.İ. İone və başqaları iştirak edirdi.

Azərbaycan Dövlət Muzeyinin və EAAzF-nın Tarix İnstitutunun elmi işçiləri tərəfindən aparılan arxeoloji qazıntılar zamanı aşkar edilmiş bütün materiallar Muzeyin anbarlarında, fondlarında cəmləşmişdi. Qədim Gəncədən gətirilmiş keramika materiallarının işlənməsinin nəticələri əsasında 1940-cı ildə V.N. Leviatovun "Qədim Gəncə keramikası" əsəri çap edilmişdir. Azərbaycan Dövlət muzeyi Qədim Gəncədən gətirilmiş, elmi baxımdan daha əhəmiyyətli və dəyərli eksponatlar Nizami muzeyinə təqdim edilmişdir.




***"Qədim Gəncə" şəhər yerinin sxematik planı***

1941-ci ildə Muzey Mingəçevirdə arxeoloji ekspedisiya işləri aparmışdır. Burada qazıntılar zamanı eramızın başlanğıcına aid mədəni təbəqələr aşkar edilmişdir. Ekspedisiyaya tarix elmləri namizədi S.M.Qazıyev rəhbərlik edirdi. Qazıntı işlərini isə elmi işçilər Y.A.Paxomov, N.V.Minkeviç-Mustafayeva aparırdı. Bu ekspedisiyanın bütün materialları Muzeyin anbarlarında və fondlarında yerləşdirilmişdi. Bundan əlavə bir sıra təsadüfi tapıntılar Muzeyə gətirilmişdir. Onların arasında Astraxanbazar (indiki Cəlilabad) rayonunun Novoqolovka kəndi yaxınlığındakı məzarlıqda

aşkar edilmiş tapıntılar: tunc, dəmir qılınclar, Xocalı mədəniyyəti formalarına yaxın, lakin daha sonrakı dövrə – bizim eranın I minilliyinin ortalarına aid ehtimal ki, Midiya dövlətinin mədəniyyəti ilə bağlı çoxsaylı keramik qablar xüsusi dəyərə malik idi. Bütün bu tapıntılar Muzeyin arxeologiya fondunu xeyli zənginləşdirmişdir.

1936-cı ildən başlayaraq muzeyin digər fondlarının həcmi artaraq zənginləşirdi.

Muzeyin fondlarının artması barədə icmal məlumatlar

| | 01.01.1936-cı il tarixində siyahı üzrə | 15.08.1943-cü il tarixində siyahı üzrə | Daxil olmuşdur |
|---|---|---|---|
| Arxeologiya fondu | | | |
| Numizmatika fondu | 1515 | 7014 | 5499 |
| (əsas sikkə və möhür kolleksiyası) | 9325 | 17188 | 7863 |
| Tarix fondu | 837 | 1745 | 908 |
| Etnoqrafiya fondu | 1564 | 3498 | 934 |
| Epiqrafiya fondu | 10 | 240 | 230 |
| Elmi kitabxana | 4700 | təq. 30000 | təq. 25000 |

Cədvəldəki rəqəmlərdən göründüyü kimi, 1936-1943-cü illərdə muzeydəki eksponatların sayı iki dəfədən çox artmışdır. Lakin muzey eksponatlarının təkcə kəmiyyətcə artmasına diqqət yetirməklə kifayətlənmirdi, burada fond materiallarının öyrənilməsi, təsvir edilməsi üzrə daim iş aparılırdı. Bu işin nəticələri təkcə inventarlaşdırma sənədlərində deyil, həm də ayrı-ayrı təsvirlərin tərtib edilməsində ifadə olunurdu. Məsələn, arxeologiya fondu üzrə N.V.Minkeviç-Mustafayeva Dağlıq Qarabağ Muxtar Vilayətinin Hadrut rayonunda aşkar edilmiş, e.ə. IV-III əsrlərə aid bürünc məmulatlar: qolbaqlar, sırğalar, üzüklər, tanalar kolleksiyasını təsvir edən “Dolonlar kəndində aşkar edilmiş arxeoloji tapıntılar” adlı sənəd tərtib etmişdi. Numizmatika fondu üzrə Y.A. Paxomov “Azərbaycanın və Qafqazın digər respublika

və diyarlarının xəzinələri” (2-ci buraxılış – 1938-ci ildə, 3-cü buraxılış – 1940-cı ildə), “Çaykənd xəzinəsi” (1941-ci il buraxılışı) adlı işləri hazırlamış və dərc etdirmişdir. Y.A. Paxomov “Muzeyin sikkə kolleksiyasının təsviri”nin 2-ci və 3-cü buraxılışlarını (monqollardan əvvəlki dövr dövlətlərinin və monqol dövrü dövlətlərinin sikkələri), “Bərdə xəzinəsi”, “Muzeyin sikkə kolleksiyası üzrə bələdçi broşura” tərtib etmişdir. Tarix fondu üzrə XVIII əsrdə yaşamış bəzi Azərbaycan xanlarının məktubları ərəb və fars dillərindən tərcümə edilmiş, XIX əsrin əvvəlinə aid bir sıra sənədlərin təsviri tərtib edilmişdir (bu işlər tarix elmləri namizədi S.M. Qazıyev tərəfindən yerinə yetirilmişdir). Etnoqrafiya fondu üzrə “XIX əsr Azərbaycan tikmələri” məqaləsi və eyni mövzuda albom, “Şuşa şəhərindən olan azərbaycanlı qadın kostyumunun təsviri”, “Qarabağın Azərbaycan kişi və qadın kostyumlarının təsviri” adlı məqalələr tərtib edilmişdir (bu işlər etnoqrafiya fondunun müdiri Z.A. Kilçevskaya tərəfindən yerinə yetirilmişdir.

Muzeyin elmi kollektivi geniş kütləvi siyasi-maariflədirmə işi aparmaqla yanaşı, Tarix İnstitutu ilə birgə aparılan elmi işlərin yerinə yetirilməsində fəal iştirak edirdi. 1940-cı ildə muzeyin elmi işçiləri İ. Cəfərzadə, V. Leviatov, Y. Paxomov, Z. Yampolski və başqaları Azərbaycan tarixinə dair monoqrafik oçerklərin tərtib olunmasında fəal iştirak etmişlər.

V.N. Leviatov Bakıdakı Şirvanşahlar Saray Kompleksinə aid yeni bələdçi kitabı hazırlamışdır. Muzeydə aparılan elmi işlər üçün kitab bazasının təmin edilməsi məqsədilə öz kitabxanasının genişləndirilməsi, dəstləşdirilməsi məsələlərinə böyük diqqət yetirirdi. Kitabxananın müdiri A.İ. Qrinbaum tərəfindən həyata keçirilmiş işlər nəticəsində Respublikada çox zəngin və fərqli qafqazşünaslıq kitabxanası yaradılmışdır.

XX əsrin 40-cı illərinin sonunda Azərbaycan Tarixi Muzeyinin direktoru Saleh Qazıyev Muzeyin fondlarında və arxivlərində saxlanılan materiallar əsasında “Azərbaycanın maddi mədəniyyəti” adlı xüsusi məcmuələr dərc etmək ideyasını irəli sürmüşdür.

Böyük Vətən müharibəsi dövründə muzey tarixi-müdafiə mövzularına həsr edilmiş 9 səyyar sərgi təşkil etmişdir. Bu sərgilər rus sərkərdələri Aleksandr Nevskiyə, A.V. Suvorova, M.İ. Kutuzova, eləcə də Azərbaycan xalqının azadlıq və müstəqillik uğrunda qəhrəmanlıq mübarizəsinə həsr edilmişdir – “Babək”, “Monqol istilasına qarşı mübarizə”, “Azərbaycan xalqının oğulları – Vətən Müharibəsi qəhrəmanları” və s. Sərgilərin yaradılması üzərində Muzeyin elmi işçiləri A.Y. Lev, Y.T. Tuzenkeviç və başqaları işləmişlər. Səyyar sərgilər hospitallarda, klublarda, mədəniyyət saraylarında, kinoteatrlarda nümayiş etdirilir, on minlərlə insan bu sərgilərlə tanış olurdu.

## 1950-ci ildə Muzeyin fəaliyyəti

1950-ci ildə Azərbaycan Tarixi Muzeyinin əsas fəaliyyəti Azərbaycanın və onun maddi mədəniyyətinin (arxeologiya, etnoqrafiya) öyrənilməsi, tarixi sənədlər, ev müxəlləfatı əşyaları, əmək alətləri, silahlar, Azərbaycan xalqının maddi mədəniyyətinə aid ekspedisiyalar, arxeoloji qazıntılar nəticəsində əldə edilmiş, eləcə də əhalidən alınmış digər eksponatlar əsasında tematik sərgilər üzrə mədəni-maarif işlərinin aparılmasına yönəldilmişdir.

Muzey üçün iki prioritet problem vardı:

1) Azərbaycanın maddi mədəniyyəti;

2) Azərbaycan tarixi.

Birinci problem üzrə "Mingəçevir arxeoloji abidələri" mövzusunun işlənməsi davam etdirilmiş, etnoqrafiya sahəsində Xaldan, Samux rayonlarının, Mingəçevir ətrafında yerləşən, gələcək Su Elektrik Stansiyası su anbarının altında qalacaq kəndlərin əhalisinin, məişətinin, maddi mədəniyyətinin öyrənilməsi üzrə iş aparılmışdır.

İkinci problem üzrə - numizmatika sahəsində yeni sikkələr öyrənilmiş, muzeyin əsas kolleksiyaları daha da zənginləşmiş, Azərbaycan sikkələrinin ümumi təsvir mətni tərtib edilmiş, mingəçevirdə qazıntılar zamanı aşkar edilmiş sikkələr üzərində elmi-tədqiqat işləri aparılmışdır. "XIX əsrin birinci yarısında Bakı şəhərinin tarixi" mövzusunun işlənməsi davam etdirilmişdir.

1950-ci ildə Azərbaycan Tarixi Muzeyinin ştatı 34,5 vahid təşkil etmişdir. 1950-ci ilin ikinci yarısında Azərbaycan SSR EA-nın maliyyə planının azaldılması ilə əlaqədar 2 ştat vahidi ixtisar edilmiş, 3 əməkdaş aspiranturaya daxil olmuş, 1 əməkdaş məktəbdə təhsilini davam etdirmiş, ilin sonunda isə bir nəfər işə qəbul edilmişdir. 1951-ci il 1 yanvar tarixində muzeyin ştat cədvəlində 29,5 ştat vahidi olmuşdur, onlardan: bir nəfər elmlər doktoru, professor, bir nəfər tarix elmləri namizədi, bir nəfər baş elmi işçi vəzifəsini icra edən, 10 kiçik elmi işçi, bir böyük laborant, bir preparator, qalanları xidmət heyəti kimi çalışmışlar.

“XIX əsrin birinci yarısında Bakı şəhərinin tarixi” adlı mövzuya Azərbaycan SSR EA müxbir üzvü professor İ.A. Hüseynov rəhbərlik edirdi. Bu mövzu üzrə Azərbaycan SSR DİN Arxiv İdarəsində iş aparılmış, Bakı komendantının fonduna baxılmış, bir çap vərəqi həcmində material işlənmişdir. Bundan əlavə, Leninqradda fəaliyyət göstərən Hərbi-Dəniz Arxivinin SSRİ EA kitabxanasının əlyazma fondunun materiallarından və digər sənədlərdən istifadə edilmişdir. Müxtəlif materialların öyrənilməsi prosesi keçən əsrin əvvəlində aparılmış ilk tədqiqi - hesablamalar əsasında Qız qalası abidəsi haqqında məqalə hazırlanmışdır.

Azərbaycan SSR EA tərəfindən nəzərdə tutulan maliyyə resurslarının azadılması nəticəsində “XIX əsrin birinci yarısında Bakı şəhərinin tarixi” adlı mövzu muzeyin 1950-ci ildə görüləcək işlərin planından çıxarılmışdır. Professor Y.A. Paxomov Azərbaycana aid materialların aşkar edilməsi üçün Şimali Qafqaz muzeylərinə (Petiqorsk və Krasnodar) səfərlər etmişdir.

1950-ci ildə Azərbaycan Tarixi Muzeyinin fondları üzrə aşağıdakı işlər yerinə yetirilmişdir

### *Arxeologiya fondu*

Arxeologiya fondunun bir sıra otaqları üç yaruslu stellajlarla təmin edilmiş, 1946-1947-ci illərdə Mingəçevirdə qazıntılar zamanı əldə edilmiş, əvvəllər yeşiklərdə saxlanılan arxeoloji materiallar həmin stellajlarda yerləşdirilmişdir. Muzeyin əməkdaşları bütün bu materialları çöl ekspedisiyası təsvirinə əsasən qazıntılar üzrə sistemləşdirmiş, onları inventar kitabları, çöl qeydləri və gündəliklər əsasında tutuşdurmuş, cəmi 4000-dən çox əşya saf-çürük edilmişdir. Müxtəlif tədqiqatlar üçün materiallar seçilmiş, onlardan 250 nüsxə texnoloji emal və bərpa üçün muzeyin laboratoriyasına verilmiş, 40 nüsxə üçün müvafiq pasportlar tərtib edilmiş, üzvi maddələr, sümüklər Azərbaycan SSR EA H. Zərdabi adına Təbiət Tarixi Muzeyinin laboratoriyasına təqdim edilmişdir.

Fondda saxlanılan təsviri materiallar (şəkillər, planlar, sxemlər, fotoşəkillər) sistemləşdirilmişdir. Bu materiallar gündəliklər və

siyahılarla tutuşdurulduqdan sonra arxeoloji materiallar ilə eyni qaydada sistemləşdirilərək, xronoloji ardıcıllıqla qovluqlar üzrə yerləşdirilmişdir. Fotoşəkillər arxivi müvafiq qaydaya uyğun tərtib edilmiş, bütün fotoşəkillər, neqativlər arxeoloji obyektlər üzrə tutuşdurularaq sistemləşdirilmişdir. Qədim Gəncəyə aid arxeoloji materiallar – cəmi 169 əşya inventarlaşdırılaraq balansa daxil edilmişdir.

### *Numizmatika fondu*

674 sikkədən ibarət 12 partiya nəzərdən keçirilmişdir. 1949-cu ildə daxil olmuş sikkələr elmi ekspertizadan keçirilərək qeydə alınmış, əvvəllər nömrələnmiş nüsxələrə 500-ə qədər təsvir hazırlanmışdır. 1949-cu ildə aparılmış yoxlamadan sonra kataloqdakı bütün kartlar sistemləşdirilmiş, inventar nömrələri ardıcıllığı ilə yenidən yerləşdirilmişdir. Əsas kolleksiyalara 560 sikkə və 47 cilalanmış daş daxil olmuşdur.

### *Etnoqrafiya fondu*

Fondun 3000 nüsxəyə yaxın yumşaq eksponatlarının qorunub saxlanılması üçün tədbirlər həyata keçirilmişdir. XVIII əsr, XIX əsrin birinci yarısında Azərbaycan tarixinə aid ekspozisiya üçün 72 nüsxə eksponat (parçalar, ev müxəlləfatı, tikmələr, istehsal alətləri və s.) seçilmişdir.

1950-ci ildə alınmış 57 xalçadan XVIII əsrin axırlarında, XIX və XX əsrlərdə istehsal edilmiş məmulatlar xüsusi diqqətə layiq idi. Onların arasında "Xilə" xalçaları (XVIII əsrin axırları), "Pirəbədil" (XIX əsr), müasir "Çili" və "Verni" xalçaları (palaz variantları) xüsusilə seçilirdi.

Fondlar yay mövsümünə hazırlanmış, eksponatlar qurudulmuş və sanitar işləməsindən keçmişdi.

1950-ci ildə Azərbaycan Tarixi Muzeyinin işində bir sıra nöqsanlar, qüsurlar mövcud idi:

